

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Böyük Zəfərin başlanğıcı: Aprel döyüşləri



5

№ 058 (6983)

SƏS

4 aprel 2024-cü il.
Qiymәti 60 qәpik

# İlham Əliyev: "Azərbaycan Praqa və Alma-Ata bəyanatlarına sadiqdir"

ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib





4

# Üçtərəfli görüş, yoxsa qiyamətə hazırlıq



6

## DİQQƏT: Azərbaycanda 4 günlük iş rejiminə keçilir?



14

## Ailədaxili qəddar qətllər



8

## Ənənəvi, yoxsa yaşıl enerji: gələcək hansınındır?



15

## "TikTok" platforması bu tarixdə bağlanır?




13

## Anti-Reklam



11





# “Ölkələrimiz arasında dostluq münasibətləri uğurla inkişaf edir”

## Prezident İlham Əliyev Rusiyanın Sankt-Peterburq şəhərinin qubernatorunu qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinin qubernatoru Aleksandr Beqlovu qəbul edib. Görüşdə Azərbaycan ilə Rusiya arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, Azərbaycanın Rusiyanın ayrı-ayrı regionları, o cümlədən Sankt-Peterburq şəhəri ilə əməkdaşlığının ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsi işinə töhfə verdiyi vurğulandı.***

Söhbət zamanı Prezident İlham Əliyev ilə Aleksandr Beqlov arasında bundan əvvəl keçirilən görüşlər məmnunluqla xatırlandı, Sankt-Peterburq şəhərinin qubernatorunun ölkəmizə səfərinin səmərəli nəticələr verəcəyinə əminlik ifadə olundu və bu səfərin əməkdaşlığımızın perspektivlərinin müzakirəsi üçün yaxşı imkanlar yaratdığı bildirildi.

Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı Sankt-Peterburqda geniş tədbirlərin keçirildiyi xatırlandı. Bir sıra görkəmli azərbaycanlıların Sankt-Peterburq şəhərinin inkişafına verdiyi töhfə məmnunluqla qeyd edildi.

Görüşdə ticarət, iqtisadi, investisiya imkanlarının genişləndirilməsi, humanitar, mədəniyyət, təhsil sahələrində müvafiq qurumlar arasında əməkdaşlığın möhkəmləndirilməsi ilə bağlı məsələlər müzakirə olundu. Əlaqələrin möhkəmləndirilməsi üçün qarşılıqlı marağın olduğu bildirildi. Artıq 20 ildir ki, fəaliyyət göstərən Azərbaycan ilə Sankt-Peterburq şəhəri arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın iclası çərçivəsində növbəti 4 il üçün Yol Xəritəsinin imzalanması məmnunluqla vurğulandı. Sonda dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim olundu.

# ”Fransa tərəfinin Azərbaycanı aqqressiv ritorikada təqsirləndirməsi qəbuledilməzdir”

***“Aprelin 2-də Fransanın Avropa və xarici işlər naziri Stefan Sejurnenin Parisdə ABŞ Dövlət katibi ilə birgə mətbuat konfransı zamanı Azərbaycana qarşı səsləndirdiyi əsassız iddialar növbəti dəfə Fransanın bölgədə açıq-aşkar gərginlik yaratmaq və sülh prosesinə mane olmaq səylərinin bariz nümunəsidir.”***

Bu fikirləri Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Fransanın Avropa və xarici işlər naziri Stefan Sejurnenin ABŞ Dövlət katibi ilə birgə mətbuat konfransı zamanı Azərbaycana qarşı səsləndirdiyi iddialara dair şərh edərkən bildirib.



”Azərbaycan ərazilərini 30 ilə yaxın müddətdə işğal altında saxlayan, bir milyona yaxın azərbaycanlını öz doğma torpaqlarından didərgin salan, kütləvi qırğınlar və insanlıq əleyhinə cinayətlər törədən Ermənistanın Fransa tərəfindən sülhpərvər ölkə kimi təqdim edilməsi bu ölkənin həm vasitəçiliyi dövründə, həm də 44 günlük Vətən müharibəsindən sonra yürütdüyü siyasətin nə qədər saxta olduğunu nümayiş etdirir.

Bununla yanaşı, Ermənistanın geniş şəkildə silahlanmasını həyata keçirən, bölgədə militarizmi təşviq edən Fransa tərəfinin Azərbaycanı aqqressiv ritorikada təqsirləndirməsi qəbuledilməzdir.

Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi kimi məsul vəzifəni yerinə yetirdiyi bir dönəmdə, ölkənin imicinə xələl gətirmək məqsədi güdən və sədrliyimizi hədəf alan bu kimi çağırışlardan çəkinilməsinin Fransa və dünyamız üçün daha faydalı olacağını hesab edirik.

Məhz Fransa kimi ölkələrin son 30 ildə Ermənistanın təcavüzünü ört-basdır edən siyasətinin heç bir fayda vermədiyi hər kəsə aydın olmalıdır. Bununla Fransa tərəfi anlamalıdır ki, onun tərəfindən həyata keçirilən bu kimi destruktiv fəaliyyətə nə qədər ki, son qoyulmayıb, bu həm Fransanın zərər görmüş imicinə, həm də hər vəchlə müdafiə etdiyi Ermənistana xeyir gətirməyəcək”, - deyə Ayxan Hacızadə qeyd edib.

# Sabiq nazir Fransanın İsrailə və Azərbaycana qarşı riyakar siyasətini tənqid edib


THE TIMES OF ISRAEL
THE BLOGS
Ayoob Kara
FOLLOW
THE BLOGS My Blog About Me
The world’s weak reaction to Hamas’ wanton violence
Recently, a rocket fired from Lebanon killed a factory worker in Kiryat Shmona, after dozens of rockets were fired on Israel from Lebanon within the last twenty-four hours. Around the same period of time, the New York Times published chilling testimony from Amit Soussa, an Israeli lawyer who claimed that she was raped while in Hamas captivity: "He, with the gun pointed at me, forced me to commit a sexual act on him."
While some in the international community are demanding the implementation of a cease-fire, Israel is convinced that just like Azerbaijan

“Fransanın Azərbaycana və İsrailə qarşı riyakar mövqeyinin çox praqmatik olduğunu anlamaq lazımdır.” Bu barədə İsrailin sabiq rabitə, peyk və kibertəhlükəsizlik naziri, İqtisadi Sülh Mərkəzinin prezidenti, tanınmış siyasətçi və politoloq Ayub Kara ölkəsinin populyar nəşri ”Times of Israel”də dərc olunmuş ”Həmasın mənasız zorakılığına dünyanın zəif reaksiyası” sərlövhəli məqaləsində yazıb.

Qeyd olunub ki, İsrail Qərbin riyakar siyasətindən qaynaqlanan problemlərlə üzləşən yeganə ölkə deyil. Belə ki, Birinci Qarabağ müharibəsi zamanı Ermənistanın Gəncəyə raket hücumuna, müharibə bitdikdən sonra azərbaycanlı hərbi əsirlərə qarşı cinsi işgəncələrə və digər mənasız zorakılıq hallarına baxmayaraq, Qərbdə hələ də Ermənistana rəğbət bəsləyənlər əksəriyyət təşkil edir.

Məqalədə İsrail və Azərbaycanın təcavüzkarla mübarizələrində paralellərin olduğunu bəyan edən israilli analitik və yazıçı Peter Lukimsonun fikirləri də yer alıb: ”Yadımdadır, 1990-cı ildə ovaxtkı ”Vyaz” qəzetinin səhifələrində ”Qarabağ və Fələstin: paralellər aparmaq təcrübəsi” adlı böyük məqalə dərc etmişdim. Onun fəsillərindən biri ona həsr olunub ki, Qarabağ və Fələstin münaqişələri arasında oxşar cəhətlər İsrail və Azərbaycanın informasiya müharibəsində daim uduzmasındadır. Təəssüf ki, həmin məqalədə deyilənlərin hamısı bu gün də aktualdır”.

Sabiq nazir, həmçinin qeyd edib ki, İsrail və Azərbaycana münasibətdə eyni üsullardan istifadə olunur: hamının gözü qarşısında baş vermiş həm tarixi, həm də yeni faktlar açıq şəkildə təhrif edilir və ya sadəcə nəzərdən qaçırılır, son nəticədə İsraili və Azərbaycanı niyyətli şəkildə mediada iblisləşdirirlər. Üzləşdikləri qərəzli münasibətdən həm İsrailin, həm də Azərbaycanın əziyyət çəkdiyini vurğulayan politoloq Fransanı buna ən bariz nümunə kimi göstərib: ”Fransanın Azərbaycan və İsrailə qarşı riyakar mövqeyinin çox praqmatik olduğunu anlamaq lazımdır. Ermənistanın mövqeyini çox güclü erməni lobbisi, ərəblərin mövqeyini isə bu gün, səhv etmirəmsə, Fransa əhalisinin 20 faizindən çoxunu təşkil edən nəhəng ərəb icması dəstəkləyir. Hər ikisi fransız siyasətçilərinin, xüsusən də liberal solçuların gözardı edə bilməyəcəyi böyük bir seçici qüvvəsini təmsil edir. Yəni, necə deyərlər, şəxsi heç nə yoxdur”.

Məqaləni ətraflı şəkildə aşağıdakı linkdən oxumaq mümkündür:
https://blogs.timesofisrael.com/the-worlds-weak-reaction-to-hamas-wanton-violence/

# Liderin siyasi portret cizgiləri - İlham Əliyev

# AZADLIQ SİMVOLU



Ən yeni texnologiyalarının, internet, informasiya azadlığının, demokratik və rəqabətli inkişafın əsas təməl prinsiplərinitəşkil etdiyi Çağdaş dünyada hələ də müstəmləkəçilik əsarətindən xilas olmağa çalışan xalqlardan biri Yeni Koledoniya xalqı azadlıq mübarizəsində verdiyi mənəvi-siyasi dəstəyə görə Azərbaycan Prezidentinə və Azərbaycan xalqına təşəkkürünü bildirib. Martın 30-da dərc olunan "La Voixdu Caillon"jurnalının üz qabığında Azərbaycan Prezidenti İlham Əliyevin portreti olan şəkil dərc olunub və məqalədə Yeni Koledoniya xalqı öz təşəkkürünü ifadə etmək üçün azadlıq meydanında Azərbaycan Bayrağı və İlham Əliyevin Dəmir yumruq portretini qaldırırlar.... Bu detalın sosial-fəlsəfi konteksdən baxışında Çağdaş dünyanın müstəmləkəçilik rəzalətini yüksək tribunadan açıq mətnlə çəsarətlə imperialistlərin üzünə deyən İlham Əliyevi azadlıq simvolu, xilaskarlıq lideri kimi görən məzlum xalq görünür.

İlham Əliyevin siyasi portret cizgilərini çəkmək məsuliyyətini üzərinə götürmək əslində 2019-cu ilin dekabrında "ad günü hədiyyəsi" olaraq başladığımız işi davam etdirmək vəzifəsindən irəli gəlir. Prezident İlham Əliyevə 2019-cu ildə ad günü hədiyyəsi olan "Bir portret haqqında düşüncələr" adlı analitik məqalənin sonunda deyilirdi: "Onun həyat yolu və tarixi missiyası daim Azərbaycan xalqı ilə sıx bağlı olub və hələ Azərbaycan tarixinə qızıl hərflərlə uğurlar, nailiyyətlər və zəfərlər yazdırmaq imkanını Uca Tanrı artıq müdrik dövlət xadimi İlham Əliyevə nəsib edib." - bu iqtibas yazılan məqalə dövrü mətbuatda dərc olunmuşdur. Və həmin məqalədə Prezident İlham Əliyev barədə: " 24 dekabr 1961-ci il. Doğulduğu il və bürcün bu tarixdə dünyaya gələnlərdə təbiətin hansı ki, ətrafımızda tamamən yerdən və göydən ulduzların düzülüşü, torpaq, su, hava və energetik harmoniyanın təbiətən bəxş etdiyi xarakterik xüsusiyyətlər insanın həyat yolunda- talehində və şəxsi fəaliyyətində daim onu müşayiət edir. Çünki həmin tarix-il, ay, gün, saat onun bu dünyaya keçid kodudur. Həmin an təbiətin kosmik energetik və digər canlı təbii durumu insana bir çox nəsnələr verir və genetik keyfiyyətlərlə, sonrakı elm və təcrübə ilə portretin ilk rənglərini yaradır...

Bu il gücü və zəhmətsevərliyi təmsil edir, irəliləməyə söz verir. Həmin ildə doğulanlar böyük səbirə malik, az danışan, ətrafındakı insanları səmimiliyə çağıran, öz işinin fanatlarıdır. Qapalı adam olsalar da hərdən gözəl natiqlik edirlər. Əldən zirək olduqlarına görə evi həmişə səliqəli olsa da tərsdirlər və uğursuzluğu xoşlamırlar. İşlərini görməyə mane olanları vurub yolundan atırlar. Həmin il torpaq ünsürlü oğlaq bürcü altında doğulanlar sözünün üstündə duran, qarşıya çıxan çətinliklərin çəkinmədən öhdəsindən gəlməyi bacaran, həyata real baxan, komfortu sevən, əliaçıq, səxavətli olsalar da pulun dəyərini bilən, onu harada necə xərcləməyi bacaran insanlardı. Onlarla ciddi mözularda söhbət etmək, onların gözəl yaddaşına və iti ağlına baxıb zövq almaq olar. İşgüzar oğlaqlarla işləmək bir fərəhdir...".

## TƏŞƏBBÜS, ƏZM VƏ İRADƏ

Prezident İlham Əliyevin siyasi portret cizgiləri xüsusiyyətlərində təşəbbüskarlıq və başladığı işi məntiqi sonluğa çatdırmaq əzm və iradəsi Onun xarizma, cəsarət və iti zəkası ilə izah olunur ki, bu da liderlik keyfiyyətlərinin bariz göstəricisidir.

Siyasət - maraqların uzlaşdırılması sənəti kimi rəqib və opponentləri qabaqlamaq, yeni çağırış və situasiyaların önündə irəliləmək bacarığıdır. İkinci dünya savaşından sonrakı soyuq müharibə dövrü və sosialist düşərgəsinin dağılması nəticəsində yaranmış acınacaqlı mənzərə də daxil olmaqla keçən 75 il ərzində mövcud olan yüzlərlə qanlı konfliktlər içərisində yalnız biri- Qarabağ problemi əsaslı və köklü surətdə həll edilmişdir.

## SƏRKƏRDƏ

2020-ci ilin sentyabrında başlayan vətən müharibəsi cəmi 44 gün ərzində tam qələbə ilə başa çatmışdır. Azərbaycan Prezidentinin liderlik keyfiyyəti və Ali Baş Komandanın sərkərdə bacarığı xalqı bir yumruq kimi birləşdirərək Azərbaycan hərbiçiləri hərb tarixində yeni müasir döyüş nümunəsi yaratmışdır.

2023-cü ilin sentyabrında isə 24 saat ərzində antiterror əməliyyatı ilə nizamlı ordu və hər cür müasir texnika ilə silahlanmış terrorçu ordunu məhv edərək Azərbaycan Sərkərdəsi dünyaya anti-terror təcrübəsi bəxş etmişdir.

## FƏRQLİ LİDER

Azərbaycan tarixində XVIII əsrdə cənubda Ərdəbil, Marağa, Maku Qaradağ, Təbriz, Urmiya, Xalxal, Xoy, Zəncan, şimalda isə Bakı, Cavad, Dərbənd, Gəncə, İrəvan, Lənkəran, Naxçıvan, Qarabağ, Quba, Şamaxı, Şəki və Şirvan xanlıqları, eyni zamanda İlisu, Qəbələ, Ərəş, Qazax və Şəmşəddil sultanlıqları xarici istilaya qarşı mübarizə aparsalar da, ayrı-ayrı dövrlərdə bu və ya digər formada birləşib torpaqlarımızı müdafiə etməyi bacarmamış və Rus-Qacar müharibəsindən sonra 1813-cü ilin 12 oktyabrında "Gülüstan sülh müqaviləsi" və 1828-ci ilin 10 fevralında Təbriz yaxınlığında Türkmənçay kəndində imzlanmış "Türkmənçay sülh müqaviləsi" ilə Azərbaycan bölünmüş və əsarətə düçar olmuşdur.

XX əsrin əvvəlində I Dünya müharibəsi nəticəsində yaranmış yeni geopolitik vəziyyətdə Azərbaycan Xalq Cumhuriyyəti yarandığını elan etsə də, siyasi ərazisini qoruya bilməmiş və hətta M.Ə.Rəsulzadənin sədrlik etdiyi Milli Şura Azərbaycanın İrəvan şəhərini ermənilərə güzəştə getmişdir.

Belə ki, "1918-ci il mayın 29-da erməni milli şurası ilə aparılan danışıqlar barədə F.X.Xoyski Azərbaycan Milli Şurası qarşısında çıxış edərək qeyd edir ki, Aleksandropol türklər tərəfindən tutulduqdan sonra ermənilərə dövlət yaratmaq üçün siyasi mərkəz lazımdır. Ona görə də Dağlıq Qarabağa olan iddialarından imtina etmək şərti ilə İrəvan şəhəri onlara güzəşt edilə bilər. Milli Şuranın iclası İrəvanın ermənilərə güzəşt edilməsinə öz razılığını bildirdi. İrəvan Milli Şurasının üzvləri M.Seyidov, B.Rzayev N.Nərimanbəyov buna etirazlarını bildirsələr də Milli Şura etirazı qəbul etmədi", - sənəddə bildirilir. Sonrakı tarixdə 1920-ci ilin dekabrın 1-də N.Nərimanovun Azərbaycan zəhmətkeşləri adından Zəngəzurun erməni zəhmətkeşlərə bağışlanması barədə məktubundan söhbət gedir.

XX əsrin sonunda yenə Azərbaycan müstəqillik elan etdi. Və təkcə Dağlıq Qarabağ deyil digər rayonlar da daxil olmaqla Azərbaycanın 20% ərazisi işğal edildi. Mitinq və küçə aksiyaları psixologiyası ilə hakimiyyətə gələn AXC-Müsavat iqtidarının dövlət idarəçiliyindəki bacarıqsızlığı sayəsində Qarabağ problemini həll etmək deyil daxili parçalanma və vətəndaş qarşıdurması ilə Azərbaycan xalqı dövlətçiliyin və müstəqilliyin itirilməsi problemi ilə qarşıqarşıya qaldı. Və dahi Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurulmasında müstəsna rol oynadı.

Bu kiçik tarixi ekskursda məqsəd tarixi-siyasi təhlil deyil, sosial-fəlsəfi yanaşma və tarixdə daimi torpaq itgisi ilə Qarabağ konfliktinin Azərbaycan dövlətçiliyi əleyhinə yaradılmış tarixi problem kimi mövcudluğunu göstərməkdir. Tarixdə Azərbaycan torpaqlarının işğaldan azad olunması və tarixi Qarabağ torpaqlarının mütləq şəkildə və tam olaraq Azərbaycan dövlətinin yurudiksiyasına keçməsi yalnız XXI əsrin 20-ci illərində mümkün oldu.

Azərbaycan Prezidenti İlham Əliyev andiçmə mərasimindəki nitqində dediyi kimi: " Mən Azərbaycanın istənilən yerində səs verə bilərdim, ancaq hesab etdim ki, Xankəndidə səs verməyim daha düzgün olar.... Orada verdiyim səs, o qutuya atdığım bülleten, sadəcə olaraq bülleten deyildi. Bu erməni separatçılarının tabutuna vurulan son mismar idi".

Və bununla da Prezident İlham Əliyev 200 ildən artıq bir dövrü əhatə edən torpaq itirmək ənənəsinə nəinki son qoymuş, zəbt olunmuş torpaqların geri alınması ilə Azərbaycan tarixində ilk siyasi lider kimi tarixə adını yazdırmışdır. Eyni zamanda Qarabağ probleminin həlli regionda yeni situasiya yaratmaqla bərabər türk dünyasının inteqrasiya prosesinə siyasi, mənəvi-psixoloji, hərbi və iqtisadi baxımdan böyük təsir göstərmişdir.

## DİPLOMAT

Prezident Əliyevin diplomatik keyfiyyətləri onun yüksək intellekti və mədəniyyətində təzahür edir. O, diplomatik danışıq və bədən dilini bütün incəliyi ilə ifadə etməyi bacarır. Məntiq və bəlağət, hərəkət və bütün forma və tərz seçimləri ilə danışır. Diplomatik və digər etiket qaydalarına çox sadiqdir. Protokolu gözəl bilməklə yanaşı ona ciddi əməl edir. Özünə nəzarət və əminlik onu istənilən situasiyaya hazır formada saxlayır.

*Ardı Səh. 4*



# Liderin siyasi portret cizgiləri - İlham Əliyev

# AZADLIQ SİMVOLU

Əvvəli Səh. 3

### ƏDALƏT UĞRUNDA

Belarusiya Prezidenti Aleksandr Lukaşenko İlham Əliyev haqqında:"Mən həmişə deyirəm ki, İlham Heydər oğlu bizim aramızda ən ziyalı və savadlı Prezidentdir..." - fikri təkcə MDB dövlət başçılarının deyil Avropa liderləri arasında da Azərbaycan Prezidentinin yüksək nüfuzunun ifadəsidir. Dünyanın ölüm təhlükəsi ilə təhdid olunduğu bir vaxtda Azərbaycan Prezidentinin təşəbbüsü ilə BMT Baş Assambleyasının pandemiya ilə mübarizə mövzusunda dövlət və hökümət başçıları səviyyəsində xüsusi sessiyası keçirilmiş və bu sahədə böyük töhfə vermişdir. Azərbaycan ÜST-ə 10 milyon dollar ianə edərək 30-dan çox ölkəyə dəstək göstərmişdi. Həmçinin vaksinlərin dünya üzrə ədalətli bölüşdürülməsi üçün BMT-nin İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə "Covid-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə qəbul edilib. Belə nümunələr dünyada və insanlıq qarşısında ədalət uğrunda mübarizədə liderlik keyfiyyətinin göstəricisidir.

### BÖYÜK STRATEQ

Bu gün dünya Azərbaycanlılarının milli lideri insanların qəlbini fəth edərək zirvəyə yüksələn İlham Əliyevi Azərbaycan xalqının 93% səslə yenidən Prezident seçməsi öz liderinə verdiyi qiymətin ifadəsi və təsdiqidir. Yeri gəlmişkən İlham Əliyevin yenidən Azərbaycan Prezidenti seçilməsini obyektiv, gözlənilən hüquqi legitim prosedur olduğunu regional və beynəlxalq maraqlı dairə və subyektlər çox aydın, real təbii proses kimi qiymətləndirirlər. Sadəcə olaraq bəzi maraqlı beynəlxalq çevrə və mərkəzlər 24 saatlıq antiterror əməliyyatında olduğu kimi yenə siyasi gedişdə Prezident Əliyevin onları qabağladığına şahidlik etməkdən başqa bir şey bacarmadılar. Elə seçkidən dərhal sonrakı təbriklərin ranqı və coğrafiyası da Prezident İlham Əliyevin opponentlərindən nə qədər güclü lider olduğunu bir daha təsdiq etdi. Əslində Prezidentin andiçmə mərasimindəki nitqi onun bir strateq kimi keçən mərhələnin sonu və yeni mərhələnin strategiyasının yol xəritəsidir. O, bəzən uzaq hədəflərə doğru ardıcıl addımlar atsa da deyə bilmədiklərini vaxtı çatmayana qədər gizlətməyi bacarır.

### TURANÇI LİDER

Beynəlxalq siyasi prosesləri çox dərindən bilən və analiz edən Azərbaycan Prezidenti öz nitqində "Təbii ki, yeni dövrə qədəm qoyarkən böyük ümidlərlə yaşayırıq.Əminəm ki, bütün Azərbaycan xalqı böyük ümidlərlə yaşayır və biz, əlbəttə, elə işləməliyik, elə addımlar atmalıyıq ki, bu ümidlər çin olsun"- deməklə xalqımızın arzuladığı, ümid etdiyi, amma çin olması çətin olan bir strateji planın anonsunu verir...

Öz nitqinin başqa bir yerində Prezident İlham Əliyev "Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır. Əgər kimsə hesab edir ki, biz başqa yerdə ailə axtarmalıyıq, deyə bilərəm ki, bizi heç yerdə gözləmirlər və bunu artıq gizlətmirlər...." deməklə cəsarətlə Qərbə - türkəfobiyaya və islamofobiyaya qarşı böyük potensialın anonsunu edir. Və türk dünyasına qarşı birləşən gizli və aşkar dairələrə açıq mesaj verir. Türk dünyasının əhatə etdiyi böyük coğrafiyanın potensialının birləşdirilməsində Azərbaycanın vacib rolunu ifadə edərək MDB məkanını və Qərbi dərindən tanıyan və analiz edən Prezident İlham Əliyev bu coğrafiyaya qarşı çıxanlara açıq münasibət bildirir. Və xalqı bu mərhələyə hazırlayır.

Böyük ingilis siyasətçisi və dövlət xadimi Uinston Çörçil demişdir:

"Dövlət xadiminin siyasi xadimdən fərqi odur ki, siyasətçi seçkiləri, dövlət xadimi isə gələcək nəsilləri düşünərək fəaliyyət göstərir".

***"Resurs" Analitik İnformasiya Mərkəzi***

---

# İlham Əliyev: "Azərbaycan Praqa və Alma-Ata bəyanatlarına sadiqdir"

## ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib

***Aprelin 3-də ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Antoni Blinken aprelin 5-də ABŞ, Avropa İttifaqı və Ermənistan arasında keçiriləcək üçtərəfli görüşün Azərbaycan tərəfdə narahatlıq doğurduğuna dair xəbərlər aldığını və bu xüsusda Prezident İlham Əliyevlə danışaraq məsələyə aydınlıq gətirilməsini vacib hesab etdiyini deyib.***

Dövlət katibi sözügedən görüşün əsas mahiyyətini Ermənistanın iqtisadi inkişafı məsələlərinin təşkil edəcəyini diqqətə çatdırıb. Prezident İlham Əliyev qeyd edib ki, onda olan məlumata görə üçtərəfli görüşə hazırlıq prosesində Ermənistana hərbi dəstək və birgə hərbi təlimlərin keçirilməsi, Azərbaycan ilə sərhədyanı ərazilərdə hərbi infrastrukturun yaradılması, Avropa İttifaqının Avropa sülh mexanizmi xətti ilə və ABŞ büdcəsi hesabına Ermənistanın silahlandırılması kimi məsələlər də müzakirə olunub. Dövlətimizin başçısı anti-Azərbaycan mahiyyəti daşıyan bu kimi addımların, o cümlədən Fransa tərəfindən də Ermənistanın silahlandırılması siyasətinin





regionda silah yarışına rəvac verdiyini və təxribatlara gətirib çıxaracağını vurğulayıb. Telefon danışığı zamanı Antoni Blinken 5 aprel görüşünün Azərbaycana qarşı olmadığını vurğulayıb.

Söhbət əsnasında Ermənistan ilə Azərbaycan arasında sülh danışıqlarına dair müzakirə aparılıb. Prezident İlham Əliyev xarici işlər nazirlərinin sülh müqaviləsinin mətni üzrə Berlində apardıqları danışıqların prosesin irəlilədilməsi baxımdan faydalı olduğunu və danışıqların sürətləndirilməsinə ehtiyac olduğunu deyib.

Həmçinin dövlətimizin başçısı Qərbdə Azərbaycanın Ermənistana hücum etmək niyyətində olduğu barədə səsləndirilən ittihamların tamamilə əsassız olduğunu vurğulayıb.

Prezident İlham Əliyev aprelin 2-də Parisdə Antoni Blinken ilə keçirilmiş mətbuat konfransında Fransa xarici işlər nazirinin yalan danışaraq, Azərbaycanı Ermənistanın ərazi bütövlüyünü tanımamaqda və Ermənistana qarşı təhlükə mənbəyi olmaqda ittiham etdiyini bildirib.

Dövlətimizin başçısı Azərbaycanın 2022-ci ildə Praqa görüşü zamanı qəbul edilmiş bəyanata və Alma-Ata bəyanatına sadiq olduğunu vurğulayıb.

Prezident İlham Əliyevin qənaətinə görə aprelin 5-də keçirilməsi planlaşdırılan ABŞ, Avropa İttifaqı və Ermənistan üçtərəfli görüşünün qeyri-şəffaf hazırlanması, qeyri-inklüziv xarakter daşıması və Azərbaycanın haqlı iradlarına baxmayaraq təxirə salınmaması Cənubi Qafqazda sülhə, əməkdaşlığa deyil, ayırıcı xətlərin və nəticə etibarilə gərginliyin yaranmasına gətirib çıxaracaq.

Söhbət zamanı Azərbaycan və ABŞ arasında ikitərəfli əməkdaşlıq məsələlərinə də toxunulub. Antoni Blinken bu ilin fevralında Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Prezident İlham Əliyev ilə apardığı müzakirələri qeyd edərək, ölkəsinin müxtəlif sahələrdə Azərbaycan ilə əməkdaşlığı genişləndirmək niyyətində olduğunu vurğulayıb. O, həmçinin COP29 çərçivəsində iki ölkənin nümayəndə heyətlərinin təmaslarını qeyd edib.

Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilmiş görüşdə müzakirə olunan istiqamətlər üzrə Azərbaycanın da ABŞ ilə ikitərəfli əlaqələrinin inkişafında maraqlı olduğunu, COP29-un iqlim dəyişikliyi məsələləri və yaşıl texnologiyalar sahəsində ölkələrimiz arasında əməkdaşlıq üçün yaxşı imkanlar yaratdığını bildirib.

# Böyük Zəfərin başlanğıcı: Aprel döyüşləri

## Prezident İlham Əliyev: "Biz beynəlxalq hüquq praktikasında və bölgəmizdə yeni reallıq yaratdıq"



2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin Qondarma Dağlıq Qarabağ Respublikasının hərbi birləşmələri arasında baş vermiş hərbi münaqişə aprel döyüşləri kimi tariximizə yazıldı. Böyük Zəfərin başlanğıcı olan Aprel döyüşlərindən artıq bizi 8 illik bir zaman ayırır. Ən müasir silah və texnika ilə tam təmin olunmuş Azərbaycan Ordusunun gücünü, qüdrətini bir daha nümayiş etdirdi. Azərbaycan Ordusu 2016-cı il aprelin əvvəllərində ölkəmizin ön xətt mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən intensiv artilleriya atəşinə məruz qalanda əks-həmlə ilə təxribatların qarşısını aldı. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bir sıra mövqelər düşməndən azad olundu. Silahlı Qüvvələrimizin döyüşçülərinin qəhrəmanlığı, igidliyi sayəsində mənfur qonşularımızın öz orduları haqqında yaratdıqları mif alt-üst edildi. "Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Güclənən Azərbaycan və qüdrətli Azərbaycan Ordusu, qəhrəman Azərbaycan əsgəri onlar üçün daim qorxu mənbəyidir və bu qorxunu aradan qaldırmaq üçün, sadəcə olaraq, Ermənistan beynəlxalq hüquq normalarına əməl etməlidir və işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxmalıdır" - deyg Azərbaycan Prezidenti çıxışlarının birində vurğulamışdır. Ermənistanın Azərbaycanla dövlət sərhədində və qoşunların təmas xəttində törətdiyi növbəti hərbi insident Ordumuzun qüdrətini və sarsılmaz döyüş ruhunu, erməni ordusunun isə acizliyini və zəifliyini nümayiş etdirdi.







### 4 GÜNÜN BÖYÜK QƏLƏBƏSİ

Ən müasir hərbi texnika və silahlarla təchiz edilmiş, yüksək vətənpərvərlik ruhuna malik Ordumuzun 4 gün ərzində düşməni əks-hücumu ilə darmadağın etməsi məhz yüksək peşəkarlığın göstəricisi idi. Düşmənin atəş nöqtələrinə və artilleriya qurğularına vurulan zərbələr, kəşfiyyat orqanları tərəfindən həyata keçirilən müvafiq tədbirlər nəticəsində Azərbaycan Ordusu irəlilədi. Azərbaycan bayrağı Lələtəpə yüksəkliyində asıldı.

Döyüşlər Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələndi və Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələ təpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində yollar düşməndən azad olundu.

Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu Hərbi Hava və Hava Hücumundan Müdafiə, Hərbi Dəniz və Quru qoşunlarından ibarətdir. Bu qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır. MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Büdcə vəsaiti ildən-ilə artırılan Azərbaycan Silahlı Qüvvələrinin buna müvafiq olaraq hərbi imkanları da genişlənir.

### 2,000 HEKTARLIQ ƏRAZİ AZAD EDİLDİ

5 apreldə hər iki tərəfin razılığı və beynəlxalq qurumların müşahidəsi ilə yenidən atəşkəs müqaviləsi imzalanmışdır. Buna baxmayaraq, Ermənistan tərəfindən dəstəklənən seperatçı qüvvələr atəşkəs imzalanmazdan bir neçə saat sonra onu dəfələrlə pozmuşdur. Azərbaycan Respublikasının verdiyi rəsmi məlumata görə Azərbaycan Silahlı Qüvvələri 2,000 hektarlıq ərazini azad etmişdir, ancaq Ermənistan tərəfi bu ərazinin ölçüsünün sadəcə 800 hektar olduğunu və heç bir strateji əhəmiyyətə malik olmadığını iddia edirdi.

Aprel döyüşləri özünün həcminə görə 12 may 1994-cü ildə razılaşdırılmış atəşkəs rejimindən sonra Azərbaycan qoşunların təmas xəttində baş vermiş ən böyük hərbi qarşıdurma idi.

Əlbəttə ki, Aprel döyüşləri bizi Zəfərə doğru apardı. Aprel döyüşləri xalqımızın həmrəyliyini, hər bir Azərbaycan vətəndaşının Vətən, torpaq, el-oba yolunda hər cür fədakarlığa hazır olduğunu təsdiqləmiş oldu.

### "BİZ BMT TƏHLÜKƏSİZLİK ŞURASININ QƏTNAMƏLƏRİNİ İCRA ETDİK"

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində düşməni diz çökdürdü, torpaqlarımız işğalçılardan təmizləndi, ərazi bütövlüyümüz bərpa olundu. Tarixi ədalət bərpa olundu. İşğaldan, əsirlikdən azad edilən torpaqlarımız əsl sahiblərinə qaytarıldı. "Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirdik. Bu qətnamələr 27 il idi ki, kağız üzərində qalırdı. Bu qətnamələr 27 il idi ki, sadəcə olaraq, bir çoxları üçün kağız parçası idi, təkcə Ermənistan üçün yox, başqaları üçün də. Biz deyirdik ki, beynəlxalq hüquq bizim tərəfimizdədir, BMT Təhlükəsizlik Şurasının qətnamələri tələb edir, işğalçı qüvvələr torpaqlarımızdan çıxsın. Amma bunun nəticəsi olmadı. Biz beynəlxalq hüquq praktikasında və bölgəmizdə yeni reallıq yaratdıq. Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etdik. Biz ərazi bütövlüyümüzü bərpa etdik. Biz işğala son qoyduq" - deyə Prezidentimiz bildirmişdir.

Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı Ermənistanın işğalçı silahlı qüvvələrindən azad etmək kimi müqəddəs vəzifəni şərəflə yerinə yetirdi. Noyabrın 8-də qədim Azərbaycan şəhəri, Qarabağın incisi Şuşanın müasir hərb elminin ən nadir və nadir əməliyyatlarından birinin həyata keçirilməsi nəticəsində azad olunması düşmənin müqavimət potensialını heçə endirdi.

### 24 SAAT DAVAM EDƏN LOKAL ANTİTERROR TƏDBİRİ - ŞANLI TARİXİMİZDƏ YENİ SƏHİFƏ

Ötən ilin sentyabrın 19-da başlayan və təqribən 24 saat davam edən lokal antiterror tədbirləri Azərbaycan tarixinin şanlı səhifələrindəndir. Vətən müharibəsindəki tarixi Qələbəmizdən və Ermənistanın kapitulyasiyasından sonra Azərbaycan dövləti humanizm göstərərək ölkəmizin erməni əhalisi ilə reinteqrasiya prosesinə start verdi. Vətən müharibəsində qəhrəmanlıq göstərən Azərbaycan Ordusu bu dəfə də yüksək peşəkarlıq nümayiş etdirərək Ali Baş Komandanın onların qarşısında qoyduğu tapşırığı cəmi 24 saatda yerinə yetirdi. Nəticə olaraq separatçılar ağ bayraq qaldırdı və dövlətimiz qarşısına qoyduğu bütün hədəflərə çatdı. "Bu gün Silahlı Qüvvələrimizin gələcək inkişafı ilə bağlı lazımi addımlar atılır, lazımi silah-sursat, texnika alınır, yeni silahlı birləşmələr yaradılır. Xüsusi Təyinatlı Qüvvələrin sayı bir neçə dəfə artırılıb, yeni yaradılmış "Komando" silahlı birləşmələrində hərbçilərin sayı minlərlə ölçülür və bu proses davam edir. Biz elə Ordu yaratmışıq ki, - bundan sonra da bu işlər davam edəcək, - heç kim bizə sataşa bilməz və gələcəkdə də belə bir fikirdə ola bilməz". - deyə Prezident bildirib.

Bu gün Azərbaycan Silahlı Qüvvələrinin quruculuğu prosesi Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir və ordumuz inkişaf, təkmilləşmə dövrünü yaşayır. Azərbaycan Ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir bir ordudur. Azərbaycan Silahlı Qüvvələri bu gün müasir texnika ilə təchiz edilib, Vətənin müdafiəsinə daim hazır olan yüksək nizam - intizama malik bir quruma çevrilib.

İkinci Qarabağ müharibəsinin nəticəsi Qafqazın yeni geosiyasi vəziyyətinin formalaşmasında mühüm mərhələ oldu. İndi bütövlükdə bölgədə sülh və inkişaf üçün gözəl şərait yaranıb.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Üçtərəfli görüş, yoxsa qiyamətə hazırlıq



Ermənistan-Azərbaycan münasibətlərinin indiki durumu çox həssasdır. Sülh müqabiləsi adlı sənədin cəmi 2/3 hissəsinin razılaşdırıldığı barədə fikirlər dolaşır. Bunu daha çox Ermənistan tirajlayır, guya sənədin az hissəsi özünün müzakirəsini gözləyir. Əslində sənədin ən həssas bəndləri Ermənistanın destruktiv hərəkətləri səbəbindən uzlaşdırıla bilmir. Ən əsası isə rəsmi İrəvan öz vətəndaşlarını sülhə hazırlamaq əvəzinə müharibə dilini işə salır, Azərbaycanı ittiham edir və son hadisələrdə olduğu kimi sərhəd bölgəsində ciddi eskalasiyaya səbəb olacaq addımlar atır. Ermənistan ordusu Hindistan və Fransadan əldə etdiyi silahları nümayiş etdirir, güc dilinə üstünlük verir və hətta Azərbaycanın mövqelərini atəşə tutur. Halbuki, Nerkin And hadisələrindən sonar "havası alınan" Ermənistan məsələləri Masada həll edən tərəf görüntüsü yaratmağa başlamışdı. Amma

Maraqlıdır, Ermənistanda hər kəs bilir ki, bu gün döyüş başlasa məğlubiyyət, həm də acı məğlubiyyət qaçılmaz olacaq. Bəs onda bu ölkə niyə güc dilində danışmağa üstünlük versin? Məsələ burasındadır ki, Ermənistan əvvəllər olduğu kimi, arxalandıqlarından gələn ismarıclarla hərəkət etdiyindən gözləmə mövqeyindədir. Hansı əmr gəlsə, ona uyğun hərəkət edəcəyi qətidir. Xeyli müddət idi ki, iki ölkə arasında danışıqlar demək olar ki, baş tutmurdu. Hər üç platform uğursuzluğa düçar olduğundan, yeganə ümid ikitərəfli danışıqlara qalmışdı. Hətta ümidverici cəhdlər də oldu, amma sonunda "gözəgörünməz" əllər yenə Ermənistanı yolundan sapındırmağı bacardı. Söhbət Brüsseldə aprelin 5-də baş tutacaq Ermənistan-ABŞ-Aİ konfransından gedir. Görüşdə nəyin və kimin müzakirə olunacağı barədə fikirlər birmənalı deyil. Rusiya üçtərəfli görüşün onun əlehinə yönəldiyini



deyir, İran da təxminən elə düşünür. Azərbaycanın isə öz çıxarları var. Rəsmi Bakı hələ bu konfransın menyüsü tərtib olunmamışdan əvvəl də ikitərəfli görüşlərdən savayı bütün platformaların effektsiz olacağını proqnozlaşdırırdı və bu, hadisələrin inkişafında da özünü sübuta yetirdi. Çünki, "vasitəçilər" münaqişə tərəflərinin yox, özlərinin maraqlarını güdürlər. Nəticədə Ermənistan və Azərbaycan üzərindən dünyanın ən həssas Cənubi Qafqaz regionuna nəzarət etmək iddiasını ortaya qoyurlar ki, bud a xüsusilə Azərbaycanın maraqlarına ziddir.

### 5 apreldə nə baş verəcək?

Aprelin 5-də Brüsseldə Ermənistanın Baş naziri Nikol Paşinyanın ABŞ Dövlət katibi Entoni Blinken və Avropa Komissiyasının sədri Ursula fon der Leyenlə Brüsseldə planlaşdırılan görüşü də regionda sabitliyi pozmağa hesablanıb. Görüşün keçirilməsinə 3 gün qalmış Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan istiqamətindəki mövqelərinin atəşə tutulması ilk siqnallardır. Bu bir daha onu deməyə əsas verir ki, Aİ, ABŞ və Ermənistan arasında Brüssel görüşü fərqli motivdə təqdim edilsə də, reallıqda hərbi pakt imzalanacaq. Bu paktın imzalanmasını arqumentləşdirmək üçün isə hazırda regionda gərginlik atmosferi yaradılır.

"Biz Ermənistan və Azərbaycan sərhədində eskalasiyaya və hərbi əməliyyatlara səbəb ola biləcək ritorikaya qarşı xəbərdarlıq edirik və xəbərdarlıq edəcəyik". Bu barədə ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller brifinqdə bildirib. "Biz hamının hüquqlarına hörmət edildiyi regionda ədalətli və layiqli sülh üçün şəraitin yaradılmasını təşviq etməyə davam edirik" deyə bildirib. Onun sözlərinə görə, davamlı sülhü təmin etməyin yeganə yolu danışıqlardır. (Yenə vasitəçilik iddiası - müəllif). "Biz bu həftə sonu Azərbaycan hökumətinin bəyanatını gördük. Aİ missiyası bəyanat yayıb ki, Ermənistan-Azərbaycan sərhədi sakitdir və qeyri-adi hərbi hərəkətlər yoxdur", - deyən Miller əlavə edib ki, Ermənistan-Aİ-ABŞ formatında keçiriləcək yüksək səviyyəli görüşün diqqət mərkəzində sülh prosesi olmayacaq: "Görüşümüzdə Ermənistanın iqtisadiyyatının şaxələndirilməsi, humanitar yardım, qaçqınlara dəstək və Ermənistanın siyasi islahatlarına dəstək müzakirə olunacaq".

### Paşinyan özünü elə göstərir ki...

Ermənistanın baş naziri Nikol Paşinyan partiya iclaslarından birində deyib ki, "mən özüm üçün strateji qərar verdim ki, təslim olmayacağam və bu mənada mənim üçün ən vacibi budur". Onun bu sözləri sadə cümlə kimi səslənir, amma Nikolun özünə yox, bütün Ermənistana aiddir. Çünki o, yeni bir faciə baş verərsə, şübhəsiz ki, qisasdan qaçacaq. Planı həyata keçirənlər onu ölkədən çıxarmağa vaxt tapacaqlar. "Mən başqa yerdən gəlməmişəm, sizin mühitinizdə doğulub, formalaşıb, böyümüşəm. Aydındır ki, baş verən hər şey psixoloji, insani, əxlaqi və siyasi baxımdan çox çətindir", - Nikol deyib. Bəli, o, adi ermənidir və onu hakimiyyətə gətirənlər elə ermənilərin özləridir. Paşinyana müxalif olan ermənilər düşünürlər ki, o, bu gücü heç kimlə bölüşmək fikrində deyil. Nikol Ermənistanın faciəsinə aparacaq addımlar atmağa məcbur edilir. Rusiya çox açıq şəkildə bildirir ki, hər cür "qırmızı xətləri" keçməyə görə mütləq cəza olacaq. Bunu gizlətmirlər.

İndi isə diqqət yetirək ki, ötən həftənin sonunda Bakıda Azərbaycan və Rusiya Xarici İşlər nazirlikləri arasında müntəzəm məsləhətləşmələr aparılıb. Görüş Azərbaycan xarici işlər nazirinin müavini Samir Şərifov ilə Rusiya Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Pavel Knyazev arasında baş tutub. Sonra Pavel Knyazevi Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov qəbul edib. Danışıqlarda ikitərəfli və beynəlxalq əməkdaşlıq məsələləri müzakirə olunub. Aydındır ki, Bakı Ermənistanla küsməsi üçün Rusiya ilə əməkdaşlığı dərinləşdirir. Aprelin 5-də keçiriləcək Ermənistan-Aİ-ABŞ formatında yüksək səviyyəli görüş Ermənistanın qarşısında duran vəzifələrin dəfələrlə artdığını göstərir.

Amma ermənilərin hakimiyyətə gətirdiyi Paşinyan bütün bu çətinliklərin öhdəsindən necə gələcəyi barədə aydın hekayə əvəzinə, fəlakətlə nəticələnə biləcək qərarın qəbul edilməsinin çətinliyindən danışır. Ermənistanın 44 günlük müharibədə məğlubiyyətindən, Qarabağın işğaldan azad edilməsindən sonra o, səhv başa düşülən dahi, naməlum qəhrəman obrazında görünməyə çalışır. Paşinyan deyir ki, bu yoldan imtina etmək və ya tərk etmək əsl xəyanət olardı. O, özünü elə göstərir ki, Rusiya ilə qarşıdurmada ABŞ və Aİ-nin zəifliyini hiss etmir. O, həqiqətən də Rusiyanın yer üzündən sildiyi Ukraynanın taleyini Ermənistan üçün hazırlayır. Ermənistanla bağlı Ukrayna ssenarisinin təkrarlanmasının qeyri-mümkün olduğunu deyənlər Rusiya hərbi gəmisinin arxasınca göndərirlər. Sual həmişə olub və onun planlarına kimin və necə qarşı çıxmağa hazır olmasıdır. Ukraynadakı müharibə göstərdi ki, kollektiv Qərb parçalanıb və Rusiyaya onun məğlubiyyətinə səbəb ola biləcək təzyiq göstərməyə hazır deyil. Bu, Avropanın tam mərkəzində baş verməyib və heç vaxt Qərb üçün Ukrayna qədər vacib olmayan Cənubi Qafqazda da baş verməyəcək. Amma Nikol Paşinyan erməniləri özlərinin səssiz razılığı ilə, həm də inamla qırğına aparır.



### Rusiya qəzəblidir

Rusiya Ermənistana xəyanətinə görə qəzəblidir, ona görə də bu ölkədə beşinci kolonunu aktivləşdirir. Aprelin 5-də Ermənistanın baş naziri Nikol Paşinyanın Brüsseldə görüşəcəyi tarix yaxınlaşdıqca, Moskva bir o qədər əsəbiləşir. Bu başa düşüləndir ki, aprelin 5-dən sonra Rusiyaya həmişəlik uduzan Ermənistan beşinci kolonunu daimi bağırtısını eşidəcək. Bütün bunlar da Brüsseldə Ermənistan üçün "taleyüklü görüş" kimi təqdim olunan tədbirin qarşısını almaq üçün edilir. Brüsseldə qarşıdan gələn sammit ermənilər üçün taleyüklüdür. İclasın gündəliyinə diqqət yetirin: Ermənistan-ABŞ və Ermənistan-Aİ münasibətləri, eləcə də Ermənistan-ABŞ-Aİ münasibətləri, Ermənistanın iqtisadi və enerji sahəsində potensialının inkişafı və Ermənistanın üzləşdiyi humanitar problemlərin həlli ilə bağlı məsələlər müzakirə olunması.

Ermənistana Aİ-yə namizəd statusu almaq təklifinin veriləcəyi də gözlənilir. Həmçinin Avropa Sülh Fondundan vəsait ayrılması, hərbi yardımın artırılması, Ermənistanın müdafiə qabiliyyətinin gücləndirilməsi üçün birgə təlimlər və hərbi təlimlərin keçirilməsi, təhlükəsizlik sektorunda islahatlar, Ermənistanın sərhədlərinə nəzarətinin gücləndirilməsi, viza rejiminin liberallaşdırılması da müzakirə olunacaq. Əgər bütün bu məqamlar baş tutarsa, o zaman, aprelin 5-i Ermənistanın rəsmi olaraq Rusiyadan birdəfəlik qopması reallaşa bilər. Ermənistanda düşünürlər ki, Qərbdən dəmir-beton təhlükəsizlik zəmanəti alacaqlar. Yeri gəlmişkən, qonşu Gürcüstanda da bir vaxtlar Avropanın təlimatı ilə planlar cızılırdı.

Rusiyanın dövlət təbliğat maşınının bütün mexanizmləri indi İrəvana təzyiq etmək üçün fırlanır. Moskva İrəvanı qorxudur ki, Qərblə ilişkiləri ona baha başa gələ bilər, Aİ və ABŞ-ın Ermənistana hərbi yardımı, o cümlədən Ermənistan ordusunun modernləşdirilməsini artırmaq niyyəti ermənilərə yaxşı heç nə vəd etmir. Əslində isə bu, Rusiyanın Ermənistanda hərbi mövcudluğuna birbaşa zərbədir. Moskva düşünür ki, Qərbin əsl niyyəti Ermənistanı ikinci Ukraynaya çevirməkdir - "Ukrmənistan".

Qərbin məqsədi Rusiya və İrana qarşı kəşfiyyat aparmaqdır. Lavrovun mətbuat katibi Mariya Zaxarova öz Telegram kanalında yazıb ki, Qərbin məqsədi Ermənistanı anti-Rusiya gündəminə uymağa məcbur etmək, Moskva ilə çoxəsrlik əlaqələrini pozmaq, re-



gional təhlükəsizlik və iqtisadi sahədə mövcud mexanizmləri sarsıtmaqdır. "Bütün dünyanın gözü qarşısında Ermənistan kollektiv Qərbin erməni xalqının köklü maraqları ilə tamamilə zidd olan son dərəcə təhlükəli planlarının həyata keçirilməsi üçün alətə çevrilir", - Zaxarova yazıb.

### Bu arada...

Ermənistan-Amerika müdafiə əməkdaşlığı çərçivəsində aprelin 1-də bir qrup ABŞ təlimatçısı Ermənistan Respublikasına gəlib. Bu barədə Ermənistan Müdafiə Nazirliyi məlumat yayıb. Müdafiə Nazirliyinin inzibati kompleksində təlimatçılar Müdafiə Nazirliyinin İnformasiya və İctimaiyyətlə Əlaqələr İdarəsinin və "Zinuz Media" Dövlət Müəssisəsinin əməkdaşları ilə birgə ictimaiyyətlə əlaqələr və kommunikasiyalar sahəsində təcrübə mübadiləsi məqsədilə aprelin 1-dən 5-dək təlimlər keçirəcəklər.

**V.VƏLİYEV**

RAKURS

# BMT-də İsrailsiz müzakirələr

*Təhlükəsizlik Şurası İranın Suriyadakı konsulluğuna hücumu araşdırıb*

***Rusiyanın təşəbbüsü ilə BMT Təhlükəsizlik Şurasında İsrailin İranın Suriyadakı diplomatik mülklərinə hücumu ilə bağlı iclas keçirilib. Raket hücumu İranın yüksək rütbəli hərbi rəsmiləri və Suriya mülki vətəndaşları da daxil olmaqla, ondan çox insanın həyatına son qoyub. Çərşənbə axşamı Təhlükəsizlik Şurasının demək olar ki, bütün üzvləri diplomatik qurumlara hücumların əsassız olması ilə razılaşdılar, çünki bu, Diplomatik Münasibətlər haqqında Vyana Konvensiyasının kobud şəkildə pozulmasıdır. Fransa təmsilçisinin çıxışı "İranın sabitliyi pozan fəaliyyətini" vurğulamaqla diqqət çəkib.***

BMT-nin baş katibi hadisəyə dərhal reaksiya verib. Baş Katib Antonio Quterreşin sözçüsü Stefan Düjarrik bəyanatında bildirib ki, "Baş katib beynəlxalq hüquqa uyğun olaraq diplomatik və konsulluq binalarının və personalının toxunulmazlığı prinsipinə bütün hallarda hörmət edilməli olduğunu bir daha təsdiqləyir".

Eyni zamanda məlum olub ki, Rusiya Çinin dəstəyi ilə bu məsələ ilə bağlı BMT Təhlükəsizlik Şurasının növbədənkənar iclasını təyin etməyə çalışır. Rusiyanın daimi missiyası Amerika vaxtı ilə çərşənbə axşamı səhər tezdən səylərin uğurlu olduğunu açıqlayıb. Müzakirələrə İran və Suriya nümayəndələri dəvət olunub, İsrail iştirak etməyib.

İclasda ilk olaraq brifinqlə çıxış edən BMT Baş katibinin Yaxın Şərq, Asiya və Sakit Okean üzrə köməkçisi Mohamed Khaled Xiari olub. O qeyd edib ki, İran İslam Respublikası BMT aparatına, o cümlədən baş katib və Təhlükəsizlik Şurasına məktublar göndərib. Bu mesajlarda iranlılar baş verən hər şeyə görə birbaşa İsraili günahlandırıblar. Cənab Xiari vurğulayıb ki, BMT-nin hücumu qiymətləndirməsində heç bir fərq yoxdur. "Açıq deyim, beynəlxalq hüquqa uyğun olaraq bütün hallarda diplomatik və konsulluq binalarının və personalının toxunulmazlığına hörmət edilməlidir. Üzv dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə beynəlxalq hüquq normalarına uyğun olaraq hörmət edilməlidir. Qaydalara əsaslanan beynəlxalq nizam dünya sülhü və təhlükəsizliyi üçün vacibdir" deyən köməkçi əlavə edib ki, bu cür hərəkətlərdən nəinki qarşısı alınmalı, "gərginliyin daha da artması və kəskinləşməsinin qarşısını almaq üçün bütün maraqlı tərəfləri fəal şəkildə cəlb etməyə davam etməli" və bütün tərəflər "maksimum təmkin" tətbiq etməlidir.

## İsrail ordusu HƏMAS liderlərini ovlayır

Daha sonra söz Rusiyanın daimi nümayəndəsi Vasili Nebenzaya verilib. O deyib ki, İsrail ordusu Təhlükəsizlik Şurasının 2728 saylı qətnaməsinin atəşin dərhal dayandırılması tələbinə baxmayaraq, Qəzza zolağında misli görünməmiş hərbi əməliyyat fonunda Suriyadakı müxtəlif hədəflərə davamlı raket və bomba hücumlarını davam etdirir. Diplomatın vurğulayıb ki, Rusiya Federasiyası "məcburi hüquqi qüvvəyə" malik olan qətnaməyə belə açıq-aşkar etinasızlıqdan son dərəcə narahatdır. Üstəlik, bütün bunlar "ABŞ-ın razılığı ilə" baş verir.

Çin təmsilçisi rusiyalı həmkarını dəstəkləyib. Daimi Nümayəndənin müavini Qenq Şuanq deyib ki, İranın Suriyadakı diplomatik idarəsinə hücum BMT Nizamnaməsi, Vyana Konvensiyasının və ümumilikdə beynəlxalq hüququn ciddi şəkildə pozulması, həm Suriya, həm də İranın suverenliyinin pozulmasıdır. Diplomat xatırladıb ki, düz 25 il əvvəl Çinin Yuqoslaviyadakı səfirliyi "ABŞ rəhbərliyi altında NATO" tərəfindən bombalanıb, bu da insan tələfatına və ciddi dağıntılara səbəb olub. Qenq Şuanq deyib: "Biz İran hökumətinin və xalqının kədərini və ağrısını özümüz kimi hiss edirik". Və əlavə etdi ki, bu cür hərəkətlər cəzasız qalmamalıdır, çünki bu, yanlış siqnal kimi şərh edilə və daha riskli addımların atılmasına səbəb ola bilər.







Müzakirə iştirakçılarının demək olar ki, hamısı İran səfirliyinin partladılmasını pisləyib. Əlcəzair "beynəlxalq nizamın əsasını təhlükə altına alan" hərəkətlərə görə "cavab tədbirləri" tələb edib. Sloveniya hücumu "qəbuledilməz və əsassız" adlandırıb. İsveç eskalasiya spiralını dayandırmağa çağırıb. Cənubi Koreya Qəzzada münaqişə tərəflərindən nəhayət atəşkəs tələb edən qətnaməyə əməl etməyə başlamağı tələb edib. Malta, Ekvador və Sierra Leone nümayəndələri diplomatik mülkiyyətin toxunulmazlığının "vacib olduğunu" bildiriblər.

Fransanın bəyanatı fərqli olub. Daimi nümayəndə Nikolas de Rivyer çıxışına baş verənlərə boşluqda baxmaq olmaz deyə başlayıb: "Dəməşqə zərbələr artan gərginlik fonunda... və HƏMAS-ın oktyabrın 7-də terror hücumundan sonra bu gərginliyin bütün məsuliyyəti İran və onun regional tərəfdaşlarıdır". Eyni zamanda, Təhlükəsizlik Şurasının "kollektiv məsuliyyəti gərginliyi azaltmaq üçün mümkün olan hər şeyi etməkdir". Lakin hətta Fransanın ən yaxın müttəfiqləri - Böyük Britaniya və ABŞ da baş verənlərə göz yummamağa qərar veriblər. Böyük Britaniyanın BMT-dəki daimi nümayəndəsinin müavini Ceyms Kariuki "diplomatik binaların bütövlüyünə hörmət edilməsinin, diplomatik və konsulluq işçilərinin qorunmasının vacibliyini" vurğulayıb. O, həmçinin "İranın regionda sabitliyin pozulmasında rolunu" qeyd etsə də, 2728 saylı (Qəzzədəki münaqişə ilə bağlı) qətnaməyə əməl olunmasının zəruriliyini bəyan edib.

Bu ideyanı onun britaniyalı həmkarı və ABŞ-ın daimi nümayəndəsinin müavini Robert Vud ABŞ bazalarına hücumlar nəticəsində regionda Amerika hərbçilərinin həlak olduğunu xatırladıb. Eyni zamanda o, vurğulayıb: "ABŞ-ın Suriyadakı zərbə ilə heç bir əlaqəsi yox idi. Bizim də zərbədən əvvəlcədən xəbərimiz yox idi". Bu arada cənab Vud əlavə edib ki, Birləşmiş Ştatlar hələ də daxil olan məlumatları öyrənir və hələ əminliklə cinayətkarın adını çəkə və İranın diplomatik mülkiyyətinə (hərbi obyektə deyil) həqiqətən hücum edilib-edilmədiyini deyə bilməz. "Ancaq diplomatik obyektlərə hər hansı təsdiqlənmiş hücum ABŞ-ı narahat edəcək - diplomatik nümayəndəliklər və onların əmlakı, habelə rəsmi diplomatik iqamətgahlar qorunmalıdır", - spiker əlavə edib. Rusiyanın daimi nümayəndəsi üç qərbli həmkarının çıxışına cavab olaraq irad bildirməkdən çəkinə bilməyib: "Bir daha onların kinsizliyinə və ikili standartlarına heyran qaldıq. Onların mürəkkəb şifahi tarazlıq hərəkətindən bu gün niyə buraya toplaşdığımızı başa düşmək ümumiyyətlə çətindir".

Onun sözlərinə görə, Fransa nümayəndəsi İsrail tərəfindən beynəlxalq hüququn növbəti dəfə pozulmasını pisləyən sözlərdən başqa bir şey söyləməyib. Diplomat istehza ilə qeyd edib ki, "hər zaman hər hansı məsələ ilə bağlı birinci əldən məlumatı olan" ABŞ-ın bu dəfə belə bir məlumatı olmayıb. "Həmkarlar, regiondakı səfirliyinizə və ya konsulluğunuza hücum edilsə, siz də reaksiya verərdinizmi? Bu, bütün aşkarlığı ilə qaydalara əsaslanan əmrinizdir", - Vasili Nebenzya qeyd edib. Sonda söz alan İran və Suriya nümayəndələri iclası çağırdıqlarına görə Rusiya və Çinə təşəkkürlərini bildiriblər və İsrailin də iclasda iştirak etməyən hərəkətlərinə qəzəbləniblər.

## Vaşinqton İranın ittihamlarını rədd edir

İranın ali rəhbərliyi İsrailin Dəməşqdəki diplomatik missiyasına endirdiyi zərbəyə cavab verəcəyini vəd edib. Aprelin 1-də baş verən hücumda İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) yüksək rütbəli komandiri Məhəmməd Rza Zahidi öldürülüb, İsrail kəşfiyyatı Tehranla Yaxın Şərqdə sadiq qeyri-qanuni qüvvələr arasında koordinasiyadan məsul olduğuna inanırdı. ABŞ qalmaqallı hücuma görə məsuliyyəti rədd etməyə tələsib və İran tərəfini əməliyyatdan xəbəri olmadığı barədə məxfi şəkildə xəbərdar edib.

Ruhani lider Əli Xamneyi deyib ki, Tehran bir gün əvvəl Dəməşqdəki İran konsulluğuna hücuma görə yəhudi dövlətini peşman edəcək. O, baş nazir Benyamin Netanyahunun rəhbərlik etdiyi hökuməti lənətləyib. Bu xətti İran prezidenti İbrahim Rəisi dəstəkləyib və İsrailin Qəzza zolağında "dəfələrlə etdiyi uğursuzluqlar və məğlubiyyətlər səbəbindən kor-koranə terrordan istifadə etdiyinə" əminliyini ifadə edib. Raisi hücumda öldürülən SEPAH generalları Zahedi və Məhəmməd Hadi Hacı Rəhiminin Suriya paytaxtında yüksək rütbəli hərbi müşavir kimi olduqlarını izah etməyə çalışıb.

İsrail aviasiyası aprelin 1-də Dəməşqin Mezze prospektində binanı dağıdıb. Təsdiqlənməmiş məlumatlara görə, həmin anda SEPAH hərbi rəhbərləri Fələstin qrupları ilə İsrailə qarşı hərəkətlərin əlaqələndirilməsi məsələsini müzakirə ediblər. İsrail təhlükəsizlik aparatında Yaxın Şərqdə şiə milislərlə işlərə nəzarət edən Zahedi ABŞ-ın 2020-ci ildə İraqda Qüds Qüvvələrinin komandiri Qasim Süleymaniyə hücumundan sonra öldürülən SEPAH-ın ən yüksək səviyyəli hərbi komandiri oldu. Xamneyinin ofisindən verilən açıqlamada Zahedinin general-mayor rütbəsinə sahib olduğu bildirilib. Dövlət mediası isə onu briqada generalı kimi təqdim edib.

İsrail sistemli şəkildə Dəməşqi bombalayır, lakin bu, ilk dəfədir ki, diplomatik obyektə zərbə endirir. Bütün bunların fonunda Yediot Ahronot mənbələri İsrailin müdafiə naziri Yoav Qalantın həmvətənlərini şimalda cəbhə açmaq perspektivinə necə hazırlamağı düşündüyünü bildirib. Yediot Ahronotun həmsöhbəti "Bu kampaniyanı sürətləndirmək lazımdır" deyib: "Vətəndaşlar bizim nəyə hazırlaşdığımızı dəqiq bilməlidirlər. Çaxnaşma yaratmaq üçün deyil, maarifləndirmək üçün. Bunu gizlətmək əvəzinə hazırlaşsınlar. Bu, sabah hərtərəfli müharibənin başlayacağı demək deyil, lakin müdafiə çox vacibdir, çünki hazırlıq həyatları xilas edir".

İsrail hesab edir ki, İranın himayə etdiyi Livanın Hizbullah qruplaşması mümkün gərginləşmədə fəal iştirak edə bilər. Mütəxəssislər onun raket potensialını yaxın vaxtlara qədər Qəzzaya nəzarət edən radikal hərəkatlardan daha təsir edici hesab edirlər. Yegane sual siyasi iradədir. İndiyə qədər İsrail ilə Livan qruplaşması arasında toqquşmalar məhdud olub: İsrail hərbçiləri, bir qayda olaraq, artilleriya və aviasiya ilə qarşı tərəfə cavab verib. Bununla belə, son aylarda ivritdilli nəşrlərdəki mənbələr açıq şəkildə bildirirlər ki, Livanın sərhədyanı ərazilərinə quru işğalı planı hazırlanır.

Bölgədə yeni genişmiqyaslı toqquşma ssenarisi artıq Qəzza əməliyyatının diplomatik nəticələrini neytrallaşdırmağa məcbur olan ABŞ-dan qorxur. Cozef Bayden administrasiyasının yüksək rütbəli rəsmisi Axios-a bildirib ki, İsrail və İran arasında hərbi əməliyyatların artması ehtimalı çox yüksəkdir. Məhz buna görə də Ağ Ev Dəməşqdəki hücumdan sonra konsulluğa gözlənilən hücumdan əvvəlcədən xəbəri olmadığını İrana çatdırmağa tələsib. Çox güman ki, İsveçrənin Tehrandakı səfirliyindən dolayı əlaqə üçün istifadə edilib. NBC News-un mənbələrə istinadən verdiyi məlumata görə, Bayden administrasiyası İslam Respublikasına onun də əməliyyatın planlaşdırılmasında birbaşa iştirak edə bilməyəcəyi barədə xəbərdarlıq edib. ABŞ administrasiyasının iki rəsmisi NBC telekanalına bildirib ki, ABŞ rəhbərliyi Suriyadakı əməliyyatla bağlı mesajı Müdafiə Qüvvələrinin döyüşçüləri artıq havada olarkən alıb. Bu məlumata görə, Vaşinqtona hücum üçün hansı hədəfin seçildiyi barədə belə məlumat verilməyib.

İsrail əməliyyatının nəticələri dərhal hiss olunub. Yəmən sahillərində üzən gəmiyə raket hücumu qeydə alınıb. ABŞ ordusu da öz növbəsində Suriyanın cənub-şərqindəki hərbi obyektinin pilotsuz təyyarə ilə vurulduğunu bildirib. Eyni zamanda raket atəşinə görə İsrail ordusunun işğal etdiyi Qolan təpələrində həyəcan siqnalı çalınıb. Ola bilər ki, İranın Suriyadakı konsulluğuna zərbə endirilməsi mövzusu Qəzza zolağı ətrafındakı məsələlərlə yanaşı, Amerika və İsrail hərbçiləri arasında müzakirə olunsun. Netanyahu hökumətinin əsas müttəfiqini dövrədə saxlamaq istəməməsi ölkələr arasında yeni gərginlik yarada bilər.

**V.VƏLİYEV**

# Ailədaxili qəddar qətllər

***Cəmiyyət olaraq bütün məsələlərdə yoxlamanı vacib hesab edirik. Məsələn, avtomobil idarə etmək üçün sürücülük vəsiqəsi və sürücülük vəsiqəsi almaq üçün isə sağlamlıq testləri tələb olunur. İşə qəbul zamanı testlər və ya müsahibələr vasitəsilə şəxsinləyaqətini ölçürük. Lakin söhbət evliliyə gəldikdə, yalnız hislər və adət-ənənələri rəhbər tutaraq hərəkət edirik. Evlilik mövzusunun da bütün bunlar qədər vacib olduğunu çox vaxt unuduruq.***



Bildiyimiz kimi, Sumqayıtda 1 yaş 4 aylıq qızını dənizdə boğaraq qətlə yetirməkdə ittiham olunan Ahmet Turan Yeşil danışıb. O, açıqlamasında psixoloji problemləri olduğunu bildirib.

Qeyd edək ki, martın 31-i Sumqayıtda azyaşlı Zeyneb Yeşilin dəniz sahilində meyiti tapılıb. Onun qətlə yetirilməsi məlum olub və atası 1984-cü il təvəllüdlü Ahmet Turan Yeşil şübhəli şəxs qismində tutulub.

## Bəs, bu tip "adam"ları evlənmədən öncə necə tanımaq lazımdır? Evlilik öncəsi psixoloji testlər nə qədər önəmlidir?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Evlilik yaxınlaşdıqca hiss edilən şübhələr və ziddiyyətli suallar qismən normal olsa da, əslində bunlar bizə bir şey söyləməyə çalışır. Daha sonra cavabsız qalan suallara özümüzü aldadıb yalan cavablar çıxararaq evlilik qərarımızın arxasında dururuq. Əgər evlilik kimi ömürlük bir qərar güclü şübhələrlə müşayiət olunursa, burada dayanıb evliliyin davamlılığı baxımından daha yaxından düşünmək çox vacibdir.

İllərlə birlikdə yaşadıqdan sonra bir-birindən şübhələnən, hətta bu əlaqəni evliliyə çevirmək üçün hərəkətə keçəndə bir-birlərinə güvənməkdə çətinlik çəkən bir çox cütlük görürük. Kim nə deyirsə desin, münasibətin tanınması, yəni evliliyin həm qanuni, həm də ənənəvi qəbulu ilə o qədər də sadə proses deyil.



Bu mövzuda araşdırma Los-Ancelesdə yeni evlənən 232 cütlük üzərində aparılıb. Dörd il ərzində evliliyin başlanğıcından 6 aylıq fasilələrlə müsahibələr aparılıb. Nikah zamanı kişilərin orta yaşı 27, qadınların isə 25 idi. Araşdırma "Journal of Family Psychology"də dərc olunub. Evliliyin ilk aylarında edilən müsahibədə "Evlilikdən əvvəl tərəddüd və ya şübhələriniz var idimi?" sualına kişilərin 47 faizi, qadınların isə 38 faizi bəli cavabını verib. Bu rəqəmlərdən də göründüyü kimi qadınlarda tərəddüd nisbəti kişilərə nisbətən daha azdır. Ancaq araşdırmalar nəticəsində qadının tərəddüdünün evliliyin sonrakı illərində problemlərin olub-olmayacağını göstərmək baxımından daha əhəmiyyətli bir göstərici olduğu ortaya çıxıb.

Bunlar bizə bunu deyir ki, qadınların evlənmədən əvvəl tərəddüdləri varsa, buna asanlıqla göz yumulmamalıdır. Şübhələrin zamanla keçəcəyini və ya sevginin onlara qalib gələcəyini düşünmək açılması lazım olan bir düyüncə tərzidir.

Evlilik şəxsi məmnuniyyət, güvən və ələqənin sınaqdan keçirilməsini tələb etsə də, insanın daxilindəki psixopatologiya münasibətlərdə özünü göstərə bilər. Hətta biz münasibətlərdə özümüzü tanıyırıq. Partnyorumuz güzgümüzə çevrilir. Psixoloji sağlamlıq ən azı fiziki sağlamlıq qədər vacib deyilmi? Onun məni sevdiyi üçün intihar etdiyini, spirtli içkilərə aludə olduğunu, yol qəzası keçirdiyini, dava-dalaş etdiyini deyənlər də az deyil. Sevgi davranışlarını psixopatologiya ilə səhv salaraq ailə quranları olanlar kifayət qədərdir.

Bəzən ailələr öhdəsindən gələ bilmədikləri övladlarını evləndirməklə onlardan xilas olurlar.

Qabaqcıl psixopatologiya yoxlanılmalıdır.

SİA dünyada və Azərbaycanda baş verən belə hadisələrin bir qismini araşdırıb.

## Dünyada övladını öldürən atalar:

- Türkiyədə 2 may 2023-cü il tarixində saat 18:00 radələrində Arnavutköydə baş verən hadisədə 23 yaşlı Mutlucan Ateş birlikdə qaldığı atası tərəfindən silahla vurulmuş halda tapılmışdı. Hadisə yerinə gələn sağlamlıq qrupları Mutlucan Ateşin öldüyünü müəyyən etmişdi.

- Fəhlə, 6 uşaq atası Ali Mehmet Kaya birlikdə yaşadığı dəmir-polad fabrikində işləyən oğlu Həsən Hüseyn Qayanı işə getmək üçün oyatmaq üçün otağına gedib. Lakin işə getmək istəmədiyini deyən Həsən Hüseyn Kaya atasına reaksiya verərək onu yerə yıxıb. Mehmet Ali Kaya yerdən qalxaraq qonşu otaqdan tüfəngini götürərək oğluna tuşlayıb və atəş açıb. Həsən Hüseyn Kaya qanlar içində yerdə qalarkən, qonşuların xəbəri ilə hadisə yerinə polis və sağlamlıq qrupları sövq edilib. Həkimlər qrupunun müayinəsindən sonra Kayanın öldüyü müəyyən edib.

Ali Mehmet Kayanın prokurorluqdakı ifadəsində oğlu ilə tez-tez mübahisə etdiyini, hadisə baş verən gün oğlunun onu itələyərək yerə yıxdığı zaman hirslənərək ona atəş açdığını dediyi öyrənilib.

- Amerikada cəmi iki yaşı olan balaca Julius başına nə gələcəyindən xəbərsiz idi. Evin ətrafında qaçmağa başlayan oğlunun qarşısında dayanan ata qəfildən cibindən silahı çıxararaq Juliusun başına atəş açmağa başlayıb. Qan içində yerə yıxılan Juliusun ölmədiyini anlayan ata daha sonra mətbəxə keçərək şişə bənzər alətlə oğluna hücum edib. Ata ağrıdan yerdə uzanan və həyatda qalmaq üçün mübarizə aparan Yuliusu yastıqla boğmağa çalışıb. Oğlunun nəfəs almadığına əmin olana qədər yastığı azyaşlı uşağın başından götürməyib. O, öz oğluna böyük ağrılar verib onu öldürən qatil daha sonra özünə qəsd etməyə cəhd edib.

İki yaşlı kiçik oğlu keçmiş əri tərəfindən vəhşicəsinə öldürülən Patrycja Szczesniak böyük şok yaşadı. Qısa müddətdə həbs edilən ata günahkar bilinib. Czapla'nın toksikologiya hesabatına görə, qatil oğlunu öldürərkən yüksək dozada spirt, antidepresanlar və qeyri-qanuni maddələr qəbul edib.

ARAŞDIRMA

Ana Szczesniakın məhkəmə prosesi zamanı göz yaşları ilə söylədiyi hər şeyi ümumiləşdirdi. "Ondan ayrılsam da, oğlumuzla ünsiyyət qurmasını xüsusi olaraq istədim", - deyən Szczesniak əlavə edib: "Mən heç vaxt onun Juliusla görüşməsinə mane olmamışam. Oğlum da onu uşaqların atalarını sevdiyi qədər sevirdi. O, həmişə atasına güvənirdi. Amma nəticə necə oldu? Mənim əziyyət çəkməyimi istədi və oğlumuzu öldürdü ki, məndən qisas alsın".

- Türkiyədə Muğlanın Menteşe rayonunda oğlu Cavit Karanı tapança ilə öldürən Hüseyn Kara ifadəsində oğlunun evlənmək istədiyi qıza qarşı çıxdığını, buna görə də mübahisə etdiklərini bildirib. Dava zamanı Hüseyn Kara belindəki silahı oğluna doğrultaraq dəfələrlə atəş açıb. Hadisə yerinə gələn sağlamlıq qrupları Cavit Karanın boynuna və ürəyinə dəyən 3 güllə ilə həyatını itirdiyini müəyyən edib.

- Kayseridə ağac kəsərkən düşən mübahisə zamanı oğlu Abdulkadir Köseni tapança ilə güllələyərək öldürən Nahit Köse oğlunun narkotik maddə istifadə etdiyini ifadə edərək, "Bir gün də həbs olunmağı haqq etmədim. Mən nəvələrimin yanına qayıtmaq istəyirəm. 70 yaşım var və indiyədək polis bölməsi görməmişəm. Onu öldürməsəydim, nəvələrimi, gəlinimi öldürəcəkdi".

- ABŞ-da "Atalar Günü" tortundan dilimini yediyi üçün oğlunu öldürən ata 20 il həbs cəzasına məhkum edilib. İclasda prokurorlar Travis Stackhouse-un digər dörd uşağının təhlükəsizliyi ilə bağlı narahatlıqlarını ifadə ediblər.

30 yaşlı Stackhaus oğlunu mədəsinə və üzünə yumruqlayaraq şiddətlə döyüb. Hadisə yerinə gələn polisin ilkin araşdırmasında uşağın pilləkənlərdən yıxılaraq öldüyü bildirilib. Lakin hadisədən sonra həbs edilən Stackhaus istintaq zamanı cinayətini etiraf edib və oğlunu döyərək öldürdüyünü bildirib. Buna görə də Ameer hücum zamanı aldığı zərbələr səbəbindən evin pilləkənlərindən yuvarlanıb.

İyunun 29-da keçirilən prosesdə ata ehtiyatsızlıqdan adam öldürmə, uşağa zorakılıq və qəsdən zərər vurma ittihamı ilə 20 il müddətinə azadlıqdan məhrum edilib. Bundan əlavə, Stackhausun cəzasını çəkdikdən sonra 8 il nəzarət altında saxlanmasına qərar verilib.

- Bursada oğlu Şenol Rençberin başına lomla vurduqdan sonra bıçaqlayan, daha sonra kəndirlə boğaraq cəsədini yol kənarında qoyan Telat və Ayşe Rençber cütlüyünə ömürlük həbs cəzası verildi.

- Zonguldakda itkin düşən oğlu Aydın Zengini öldürüb sonra su quyusuna basdırdığı iddiası ilə nəzarətə alınan ata Sait Zengin ədliyyəyə sövq edilib.

Mübahisə zamanı oğlunun özü ilə gətirdiyi tapançanı ona tuşladığını deyən Sait Zengin ölən oğlunu qazdıqları su quyusunda basdırdığını bildirib. Sait Zengin ifadəsində oğlunun ikinci həyat yoldaşı U.Z-yə təcavüz etdiyini də iddia edib.

- İstanbulun Üskudarda qəsəbəsində 2 uşağını öldürən və birini də yaralayan qatil ata ifadəsi ilə hər kəsi dəhşətə gətirib. arvadının onu aldatdığını düşünən Arslan G. qəzəblənərək iki övladını bıçaqla öldürüb, bir övladını da ağır yaralayıb. Hadisədən sonra Kadıköydə tutulan atanın ifadəsi qan dondurub. Tutulduqdan sonra Arslan G.-nin verdiyi ilk ifadə ortaya çıxıb. O, cinayəti etiraf edərkən dəhşətli əməlinin səbəbini heyrətləndirən bir iddiayla açıqlayıb. Arslan G. -nin ilk dindirilməsi zaman "İllərdir yoldaşımın məni aldatdığı şübhəsi ilə yaşayırdım. Bəzi qohumlarım və dostlarım da uşaqların mənə bənzəmədiyini söyləyirdi. Mən də uşaqların mənə bənzəmədiyini, məndən olmadığını düşünürəm. Həyat yoldaşımın məni illərdir aldatdığını düşündüm və uşaqları öldürmək istədim" dediyi məlum olub.





## Azərbaycanda belə hallar

- Ağstafa rayon Qırlı kəndində 6 yaşlı Şəmsəddini taxta ilə döyərək öldürən şəxs - 1979-cu il təvəllüdlü Pərvanəyev Famil Şəmistan oğlu martın 31-də axşam saatlarında polis əməkdaşları tərəfindən saxlanılıb.

- 1984-cü il təvəllüdlü Zəminə Mehtiyevanın öldürülməsi faktı ilə bağlı Sumqayıt Şəhər Prokurorluğuna məlumat daxil olub. Aparılan araşdırmalarla zərərçəkmişin atası Salam Cəfərovun şəxsi münasibətlər zəminində aralarında yaranmış münaqişə zamanı Zəminə Mehtiyevanı elektrik naqili ilə boğaraq qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Jurnalist Araşdırmaları Mərkəzinin sədri,



Yenisabah.az saytının baş redaktoru Seymur Verdizadə: "Aydın məsələdir ki, psixoloji durumu yerində olan adam övladını, üstəlik azyaşlı uşağını qətlə yetirməz. Sözsüz ki, həmin adamların psixoloji durumunda ciddi problem var. Buna görə dəfələrlə təklif olunub ki, ailə həyatı quran gənclər psixoloji müayinədən keçməlidir. Ölkəmizdə bunu tətbiq etməklə dəhşətli cinayətlərin qarşısını ala, statistikanı yarıbayarı azalda bilərik.

Son vaxtlar ailələrdə övladlara qarşı şiddət artıb. Bunun müxtəlif səbəbləri var. Bəzən qızlarımız onlara layiq olmayan, psixoloji durumu yerində olmayan adamlarla ailə həyatı qururlar. Sırf ərə getmək xatirinə kiminləsə ömür yolunu birləşdirməyə ehtiyac yoxdur.

Təcrübə göstərir ki, bu gün ailə həyatı quran gənclərin çoxsu buna hazır deyil. Söhbət yalnız psixoloji durumdan getmir. Bura həm də maddi vəziyyət daxildir. Məncə, ailə həyatı qurmağa hazırlaşan gənclər əvvəlcə ev, iş və karyera barədə düşünməlidirlər.

İndi "Uşağın ruzisini Allah özündən əvvəl yetirir" deyimi populyar deyil. Reallıq bunun əksinədir. Uşağın ruzisini ata-ana birlikdə işləyib yetirməlidirlər. Əgər ata-ananın işi yoxdursa, ailə maddi problemlərin girdabında boğulursa, mütləq həmin evdə söz-söhbət olacaq. Nəticədə arzuolunmaz kriminal situasiya ilə üzləşəcəyik. Bu baxımdan gənc ailələrin maddi durumunun yaxşılaşdırılmasına diqqət etmək lazımdır.

Sumqayıtda azyaşlı qızını vəhşicəsinə qətlə yetirən ata da maddi problemləri önə sürdü. Bu bəhanə də ola bilər. İstənilən halda bu cür cinayətlər bağışlanmamalıdır. Mən övladlarını vəhşicəsinə qətlə yetirən valideynlərə qarşı ən sərt şəkildə tədbir görülməsinin tərəfdarıyam. Hesab edirəm ki, qanunun üzünü onlara ən sərt şəkildə göstərəcək. Yoxsa, bu cür cinayətlərin qarşısını almaq mümkün olmayacaq".

Sosial məsələlər üzrə ekspert Fatimə Hacıbəyli: "Cəmiyyətin günü-gündən mürəkkəbləşdiyi bir zamanda bu cür xoşagəlməz halların çoxalması təsadüfi deyil. Bu cür hadisələr artıq insanlar üçün adiləşib. Əvvəllər belə cinayətlər baş verəndə bunun bir il söhbəti gedirdi. Bu gün isə hadisə baş verir, sabah unudulur.

Valideyn övladını öldürür, övlad ailəsini



məhv edir. İnsanlar sanki vəhşiləşib. Bu cür insanlara görə normal cəmiyyət məhv olur".

Evliliklərdə bir çox müxtəlif psixodinamikalar (insanın çox vaxt fərqində olmadığı əsas psixoloji amillər)mühüç rol oynayır və evlilik münasibətlərinin gələcəyini müəyyən edir. Cütlüklər bir-birlərini yaxşı tanımadan evlilik kimi ciddi bir məsuliyyəti öz üzərlərinə götürdükləri üçün (evlilik əslində məsuliyyət götürmək məsələsidir) bəzən bu məsuliyyətin öhdəsindən gələ bilmirlər.

## Tövsiyə

Unutmayaq ki, evlənməzdən əvvəl bəzi vacib meyarları nəzərə almaq lazımdır:

1. Evlilik və həyata baxış

2. Gələcəkdə etmək istədiyiniz işlərə dəstək olub-olmaması

3. Cinsi münasibət

4. Onun uşaq sahibi olmaq və böyütmək perspektivi

5. Öz ailəsi ilə münasibətləri

6. Öz valideynlərinin bir-biri ilə münasibətləri

7. Peşə və iqtisadi vəziyyət

8. Zərər çəkmiş xəstəliklər

9. Anasından (yaxud ailəsindən) asılı olub-olmaması

10. Onun psixoloji problemi olub-olmaması

11. Şəxsiyyət xüsusiyyətləri

və bir çox başqa faktorlar evliliyinizin sağlam olub olmadığını müəyyən edəcək. Ona görə də ailə qurmazdan əvvəl bu meyarlar yaxşı bilinməli və ailə qurmağı planlaşdırdığınız şəxslə müzakirə edilməlidir.

Bu meyarları diqqətlə qiymətləndirməli və zəruri hesab edirsinizsə, nikahdan əvvəl psixoloji dəstək almalısınız. Evlilik öncəsi məsləhətləşmələrdə yuxarıda qeyd etdiyim məsələlər və bir çox digər məsələlər müzakirə edilir və cütlüklərin nikaha hazır olub-olmaması, bir-birinə uyğunluğu, evliliyə baxışı, evlilikdən gözləntiləri kimi durumlar real təhlil edilərək onlara rəy verilir. Əgər evlənsələr, evliliklərində qarşılaşa biləcəkləri problemlər və bu problemlər üçün əvvəlcədən görməli olduqları tədbirlər haqqında məlumat verilir. Bəzi hallarda, şəxsiyyət strukturlarının bir-biri ilə uyğun olub olmadığını müəyyən etmək üçün inkişaf etmiş şəxsiyyət testləri tətbiq oluna bilər.

## Evlənmədən əvvəl özündən bunları soruş

Niyə evlənmək istəyirəm? : Niyə evlənmək istədiyiniz çox vacib sualdır. Ailədən qaçmaq, problemlərdən qaçmaq, gecikmək qorxusu, uşaq sahibi olmaq istəmək, yoxsa doğrudan da kiminləsə evlənərək ailə qurmaq istəyirsən?

Mən niyə bu adamla evlənmək istəyirəm? : Niyə başqası ilə yox, bu adamla evlənmək istəyirsən? Bir-birinizi kifayət qədər yaxşı tanıyırsınız? Birlikdə ortaq öhdəliklər götürsəniz, münasibətlərinizə necə təsir edəcək? Bir-birinizi dəstəkləyərək, inkişaf etdirərək uzun illər bir evdə yaşaya biləcəksinizmi?

Mən necə həyat yoldaşı modeli istəyirəm? : Qoruyucu, müasir, ənənəvi, fədakar, müstəqil, fərqli düşünən, ananız kimi, atanız kimi və s.

Evlənməyi planlaşdırdığınız insan həyat yoldaşı modelinizə uyğundurmu? Yoxsa evləndikdən sonra onu dəyişə biləcəyinizi düşünürsünüz?

Əksər cütlüklər tanışlıq müddətində mənfi cəhətlərini təcrid edərək qarşı tərəfin heç fərqinə varmır və müsbət cəhətlərini həmişə şişirdilmiş şəkildə qarşı tərəfə təqdim edirlər. Ancaq bizimlə evlənmək istəyən birinin bizi hər cəhətdən tanıması və varlığımızı qəbul etməsi çox önəmlidir. Gizlətdiyimiz hər bir mənfi cəhətimiz evlilikdə ciddi müzakirə və uyğunsuzluq mövzusu olaraq ortaya çıxacaq. Odur ki, evlilikdən əvvəl, tanışlıq və ya nişan dövründə özünüzü olduğunuz kimi ortaya qoymalı və birlikdə olduğunuz insandan heç bir cəhətinizi gizlətməməlisiniz.

Həyata baxışımız paraleldirmi? : Həyata oxşar pəncərədən baxa bilsəniz, hər zaman bir-birinizi düzgün qəbul etmək mümkündür. Əgər siz hər zaman hadisələrin müsbət tərəflərini görürsünüzsə, amma partnyorunuz həmişə mənfi tərəfini görürsə, bu fərq həmişə münaqişə mənbəyi olacaq. Əgər həyatı, insanları, hadisələri və faktları oxşar əsaslarla dərk edə bilirsinizsə, bu, bir-birinizə uyğun olduğunuz deməkdir.

Cinsi uyğunluğumuz necədir? : Evliliklərin təxminən yarısı cinsi uyğunsuzluq və ya cinsi problemlər səbəbindən sona çatır. Buna görə də evlənməzdən əvvəl cinsi uyğunluğunuzu test etməlisiniz.

***Ayşən Vəli***

# Rəqabətə davamlı turizm











**Dünyada turizm iqtisadiyyatın əsas inkişaf və gəlir istiqamətlərindən biri kimi dəyərləndirilir. Ölkəmizdə bütün sahələrdə olduğu kimi, turizminin inkişafına da dövlət tərəfindən ayrılan diqqət və qayğı bu sahəni iqtisadiyyatının aparıcı sahəsinə çevirməkdədir. Belə ki, rəqabətqabiliyyətli inkişaf üçün iqtisadiyyatın müxtəlif sahələrində aparılan iqtisadi islahatlar turizm sahəsinin inkişafına töhfəsini verir. Turizmin inkişafı ilə bağlı görülən işlər ölkənin müxtəlif bölgələrində turizmin fərqli növlərinin, sağlamlıq, qış, mədəni, işgüzar, ekoturizm və kənd turizmi kimi növlərinin inkişafına ciddi təsir göstərib.**

Növbəti yaxın gələcək üçün turizmin hərtərəfli inkişafına yönəlmiş 10 əsas təməl istiqamət üzrə hədəflər müəyyənləşdirilib. Bu hədəflər həm də "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulan məqsəd və tapşırıqların icrasına istiqamətlənib. Əsas məqsəd Azərbaycanı dayanıqlı, əlçatan və keyfiyyətli turizm destinasiyasına çevirməkdir. Əsas hədəflərdən biri 2026-cı ildə Azərbaycana səfər edən əcnəbilərin sayını 4 milyon nəfərə, ölkə daxilində turizm səfəri edən yerli vətəndaşların sayını isə 6 milyon nəfərə çatdırmaqdır. 2026-cı ildə turizm xərcləmələri 2021-ci illə müqayisədə 4 dəfə artaraq 11,2 milyard manata çatacaq, bunun da 49 faizi, yaxud 5,5 milyard manatı əcnəbi turistlərin payına düşəcək. Ümumilikdə isə 2026-cı ildə turistlərin yerləşdirilməsi və ictimai iaşə sektorunda ÜDM istehsalı 2019-cu illə müqayisədə 1,5 dəfə artacaq, orta hesabla hər il turizm sektorunda 20 faiz artım qeydə alınacaqdır.

Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü və balanslı xarici siyasəti, uğurlu daxili siyasəti nəticəsində Azərbaycan bu gün dünya üzrə ən təhlükəsiz və sabit ölkələr sırasındadır. Bu amil isə müasir dünyada turistlərin səyahət seçimi etməsində ən əsas göstəricidir. Xatırladaq ki, Odlar diyarı kimi səciyyələndirilən ölkəmizdə bu sahənin tərəqqisi üçün geniş potensial vardır. Təsadüfi deyildir ki, dünyada olan 11 iqlim qurşağından 9-u ölkəmizdədir. Ölkəmizin tarixi mədəniyyət abidələri var. Şəki Xan Sarayı, Nuhun qəbri, Naxçıvan diyarı, yerli Maçi-Piçku və ya Qubanın Xınalıq kəndi, Qəbələ üzüm bağları və Talış dağları və s. turist məkanı kimi tanınıb.

## TURİZMİN İNKİŞAFININ YENİ MƏRHƏLƏSİ

Mədəni turizm, sağlamlıq turizmi, idman turizmi, çimərlik turizmi, ekoloji turizm və s. ölkəmizdə mövcuddur və bunlar xarici turistləri ölkəmizə cəlb etməyə bilməz. Bu gün Azərbaycanda turizmin inkişafı respublikamıza xarici vətəndaşların cəlb edilməsi ilə yanaşı, həm də bölgələrdə əmək məşğulluğunun artması, yeni iş yerlərinin açılması baxımından da sərfəlidir. Bu isə dövlət siyasətinin prioritet məsələlərindən biridir. 1999-cu ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" fərman imzalandı. Bu qanun Azərbaycanda turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönələn dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyənləşdirdi, turizm sahəsində münasibətləri tənzimləyərək, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydalarını müəyyən etdi.

Ümummilli Lider Heydər Əliyev tərəfindən təsdiq edilən "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2002-2005-ci illər üçün" Dövlət Proqramının tələblərinə uyğun olaraq, turizm sahəsində beynəlxalq standartlara cavab verən mehmanxanalar tikildi, ölkəyə bir sıra aparıcı beynəlxalq investisiya şirkətləri cəlb olundu. Ulu Öndər Heydər Əliyevin məqsədyönlü fəaliyyətini davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin bütün sahələrə olduğu kimi, turizm sektoruna da ayırdığı diqqətin nəticəsi olaraq uğurlu nəticələr əldə edildi. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə turizmin inkişafının yeni mərhələsinə təkan verən "Azərbaycan Respublikasında Turizmin İnkişafına dair 2008-2016-cı illər üçün Dövlət Proqramı" hazırlandı. Bu müddət ərzində nümayiş obyekti kimi istifadə olunması məqsədəuyğun hesab edilən bir sıra tarixmədəniyyət abidələri bərpa edildi və turistlərin istifadəsinə verildi.

## DÜNYANIN APARICI OTEL BRENDLƏRİ

Prezident İlham Əliyev tərəfindən turizmə göstərilən diqqətin nəticəsidir ki, bu gün Azərbaycan perspektivli turizm ölkəsinə çevirib. Son illər ərzində ölkəmizdə mehmanxana və mehmanxana tipli obyekt tikilərək istifadəyə verilib. Azərbaycanın turizm coğrafiyası genişlənib. Hazırda Azərbaycan turizmi yüksələn xətt üzrə inkişaf etməkdədir. Gün-gündən inkişaf edən respublikanın iqtisadiyyatında turizm sektoru prioritet sahəyə çevrilib. Ölkənin turizm sahəsinin təqdim etdiyi xidmətlərin keyfiyyət səviyyəsinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, dünya turizm xidmətləri bazarında ölkə turizminin rəqabət qabiliyyətinin artırılması istiqamətində görülən işlər davamlı olaraq həyata keçirilir.

Bu gün "Four Seasons", "Fairmont", "Mariott", "Hilton", "Kempinski", "Jumeirah", "Sheraton", "Hyatt" kimi dünyanın səkkiz aparıcı otel brendi Bakıdadırsa, artıq bu ölkəmizin inkişafının bir göstəricisidir. Belə brendlərə yalnız dünyanın ən inkişaf etmiş şəhərlərində təsadüf olunur. Bakıda beşulduzlu otellərin sayı durmadan artır. Beşulduzlu otellərdə rahat və gözəl yerləşmə, yüksək xidmət və cazibəli interyer diqqəti cəlb edir. Təbii ki, belə hotellərin inşası Azərbaycana gələn turistlərin marağının artmasında əhəmiyyətli rol oynayır. Bu gün nəinki paytaxt Bakıda, eləcə də Azərbaycanın bir çox yerlərində ən müasir səviyyədə otellər tikilib. Şimal-qərb zonasında, Şamaxıda, Qəbələdə, Şəkidə, Qubada və başqa məkanlarda müasir tələblərə cavab verən otellər inşa edilib. Hazırda dünya ölkələri arasında iqtisadi əlaqələrin sürətlə inkişaf etdiyi bir dövrdə turizm xarici iqtisadi fəaliyyətin ən dinamik inkişaf edən sahələrindən birinə çevrilib. Ölkənin müxtəlif bölgələrində turizmin fərqli növlərinin, sağlamlıq, qış, mədəni, işgüzar, ekoturizm və kənd turizmi kimi növlərinin inkişafına ciddi təsir göstərib.

Bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə, ölkə həyatının digər sahələri kimi, turizm sektoruna da ayırdığı diqqətin nəticəsidir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Yurd yerlərinə qayıdış sürətlənir

*İl ərzində Xocalı və Xankəndi sakinləri də öz evlərinə qayıdacaqlar*

**Bu gün Azərbaycan tamamilə yeni bir dövrə qədəm qoyub. İşğaldan azad edilmiş torpaqlara qayıdırıq və həmin yerlərdə yeni bir həyat başlayır. 30 ilə yaxın işğal altında olan torpaqlarımız azad olunandan sonra Qarabağımız müasir dünyanın ahəngində qurulur, ona yeni həyat verilir.**




Azərbaycanın dilbər guşəsi Qarabağımız müasir dünyamızda yeni dövrünü yaşayır. Zəfər qazanan Azərbaycan tarixin dönəmində inkişaf yolu keçmiş Qarabağımızda böyük quruculuq işlərinə başlanılıb. Bu gün Şuşamızda, Kəlbəcərdə, Qubadlıda və digər ərazilərdə böyük abadlıq-quruculuq işlərinə başlanılıb və tezliklə işğaldan azad olunan hər bir şəhər, qəsəbə və kənd müasir məkana çevrilir.



Azərbaycan Prezidenti İlham Əliyev bildirdiyi kimi, Qarabağ və Şərqi Zəngəzur bu gün böyük tikinti meydançasına çevrilmişdir. Ötən il 5 minə yaxın keçmiş köçkün öz doğma torpaqlarına qayıtmışdır. Dövlət başçısının sözlərinə əsasən, ötən ilin mart ayında - Novruz bayramı ərəfəsində Talış kəndində bayram sevinci yaşandı, köçkünlər öz doğma evlərinə qayıtmışdılar. Avqust ayında Füzuli şəhəri və Zabux kəndi bayram içində idi. Laçınlıların bir qismi da böyük sevinci yaşayıblar. Artıq beş yaşayış məntəqəsində həyat bərpa edilib.

Onu da bildirək ki, 2024-cü ildə bir neçə yaşayış məntəqəsinə keçmiş köçkünlər, qaçqınlar qayıdacaqlar. "İl ərzində Kərkicahan, Malıbəyli, Turşsu kəndləri tam bərpa edilib keçmiş köçkünlərin sərəncamına veriləcək. Eyni zamanda, il ərzində Xocalı və Xankəndi sakinləri də öz evlərinə qayıdacaqlar", - deyə Prezident bildirib. Bu gün 30 ilə yaxın işğal altında olan torpaqlarımızda abadlıq-quruculuq işləri vüsət alıb. Dövlət başçısının Cəbrayıl rayonunda bu ərazidə Horovlu kəndinin təməlini qoyması fikrimizi əsaslandırır. Layihələndirilən ümumi ərazi 248,1 hektardır. Perspektivdə bu kənddə 3470 nəfərin (867 ailə) yaşaması nəzərdə tutulub. Baş plana əsasən, köhnə Horovlunun ərazisini əhatə edən bu kənd ərazi vahidinə görə bir-birinə yaxın olan Çapand, Safarşa, Fuğanlı və Həsənqaydı kəndləri ilə birlikdə layihələndirilib. Birinci mərhələdə Horovluya 1395 nəfərin köçürülməsi üçün 334 fərdi ev tikilir. Əlbəttə ki, kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, klub icma mərkəzi və çoxfunksiyalı bina, bazar kompleksi, idman sağlamlıq mərkəzi, tibb məntəqəsi, mərasim zalı, qonaq evinin tikintisi də planlaşdırılıb.

Cəbrayıl rayonunun Şükürbəyli kəndinin təməlinin qoyulması bu ərazilərdə tezliklə yeni həyatın başlanacağından xəbər verir. Şükürbəyli kəndində 1042 ailənin məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 298 hektardır. Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 184 hektar torpaq sahəsi ayrılıb. Bu mərhələdə kənddə 635 fərdi evin tikilməsi nəzərdə tutulur. Baş plana əsasən, bu kənd ərazi vahidinə görə bir-birinə yaxın olan Dəjəl, Şıxəliağalı kəndləri və Mahmudlu qəsəbəsi ilə birlikdə layihələndirilib. Cəbrayıl rayonunda Xudafərin qəsəbəsinin təməlinin qoyulması da mühüm əhəmiyyət kəsb edir. İşğaldan azad olunan hər bir ərazimizdə əzəli sakinlər tezliklə azad və rahat bir şəraitdə yaşamağa başlayacaqlar. Qəsəbə Azərbaycan xalqı üçün tarixi əhəmiyyət daşıyan Xudafərin körpüsünün yaxınlığında, yeni dəmir yolu xəttindən və avtomobil yolundan 7 kilometr məsafədə salınır. Qəsəbənin layihələndirilən ümumi ərazisi 25 hektardır. Baş plana əsasən, burada 149 ev tikiləcək.

Qafqazın Xirosiması adlandırılan Ağdam ermənilər tərəfindən talan edilmiş və ermənilərin nəzarəti altında şəhərdə sağ qalan yeganə tikili olan Ağdam məscidində inək və donuz saxlamaq üçün tövlə kimi istifadə olunmuşdur. 20 noyabr 2020-ci il tarixində atəşkəs razılaşması çərçivəsində şəhər və ətrafı Azərbaycana qaytarılmışdır. Bundan dərhal sonra bərpa prosesinə başlamaq planını açıqlandı və Ağdamın Azərbaycanın ən böyük şəhərlərindən birinə çevrilməsi planlaşdırılır. 26 may 2021-ci ildə uzunluğu 44,5 km olan Bərdə-Ağdam avtomobil yolunun tikintisinə başlanıldı. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Atçılıq Nəsilartırma Mərkəzinin təməli qoyulub. Gələcək üçün işıqlı bir şəhər salınır burada. Dövlət başçısı Ağdamın Xıdırlı, Kəngərli, Sarıcalı kəndlərinin təməlini qoyub.Ağdam şəhərinin daxili yol və kommunikasiya şəbəkəsinin, "City Hotel Agdam" mehmanxanasının və s. təməlinin qoyulması işlərin planlı və sürətlə davam etməsinə dəlalət edir. Bütün bunlarla yanaşı, keçmiş məcburi köçkünlər üçün Ağdam şəhərində inşa olunacaq yaşayış məhəlləsinin təməlinin qoyulması və Ağdam şəhərində Dəmir yolu və Avtovağzal Kompleksinin təməlin qoyulması bu ərazidə aparılan işlərin əzəli sakinlərini tezliklə qoynuna alacağına əsaslanır. Qeyd edək ki, Ağdam şəhərindən 6 kilometr məsafədə yerləşən Kəngərli kəndində də 2626 nəfərin (639 ailə) məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 177,2 hektardır. Burada məskunlaşacaq əhalinin sayı nəzərə alınaraq, yaşayış məhəllələrinin salınmasının birinci mərhələsi üçün 66,2 hektar torpaq sahəsinin ayrılması nəzərdə tutulur. Birinci mərhələdə 1279 nəfərin köçürülməsi üçün 290 fərdi evin inşa edilməsi planlaşdırılır.Kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılır. Burada mədəniyyət və əyləncə mərkəzləri, müxtəlif təyinatlı bir sıra müəssisələr, iqtisadi inkişaf obyektləri, təhsil, idarətmə və kənd təsərrüfatı sahələri üzrə ümumilikdə 1182 nəfərin işlə təmin olunması nəzərdə tutulur.Təməli Prezident İlham Əliyev tərəfindən qoyulan Kəngərli kəndində tikinti işlərinin 2024-cü il aprelin 10-da tamamlanacaq.

Bütün bölgələrdə elektrik enerjisi ilə bağlı layihələr qısa müddət ərzində icra ediləcək. İçməli su və bununla bağlı işlər, kənd təsərrüfatı işləri, məktəb, xəstəxana, idman kompleksləri, mədəniyyət ocaqların inşası, habelə digər irihəcmli işlər Böyük Qayıdış çərçivəsində reallaşdırılacaqdır.

Yaşıl enerji zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda nişmiqyaslı layihələr həllini tapır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlər 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaradılıb. Vətən müharibəsində qazandığımız Zəfərdən üç ötməsinə baxmayaraq, işğaldan azad olunan ərazilərimizdə abadlıq və quruculuq işləri uğurla və davamlı şəkildə həyata keçirilir. Keçmiş məcburi köçkünlər öz əzəli torpaqlarına, doğma diyarlarına qayıdırlar. Böyük Qayıdışımız reallığa çevrilir.

***Zümrüd BAYRAMOVA***



**Elçin Bayramlı**

## Anti-Reklam

***Televiziyamız getdikcə öz mahiyyətini, mədəniyyət məbədi funksiyasını itirmək üzrədir. Buna səbəb olan əsas amillər özəl TV-lərin sırf kommersiya təşkilatı olaraq yalnız biznes marağından çıxış etməsidir. Bu telekanallarda ictimai məsuliyyət və cəmiyyətin maraqları sıfıra düşüb.***

İndi tamaşaçılar televiziyalarda şou və reklam əlindən cana yığılıblar. Televiziya həvəskarları bu problemi çoxsaylı telekanalların olması səbəbindən azalda bilirlər. Yəni, pultu əlində hazır saxlayırsan, reklam başlayan kimi çevirirsən başqa kanala. Beləliklə, reklamlara heç kim baxmır və demək olar ki, reklam verənlərin pulu batır.

İndi tamaşaçılar arasında belə bir yarıciddi, yarızarafat fikir yayılıb ki, televiziyalar reklamların arasında hərdən veriliş də verirlər. Yeri gəlmişkən, söhbət özəl kanallardan gedir, AzTv və Mədəniyyət Tv dövlət kanalları olduğundan belə biabırçılığa qol qoymurlar. İctimai TV-ni də bura aid etmək olar.

TV-lərdə reklamın qiyməti astronomikdir. Şəxsən mən şirkətin reklam meneceri olsaydım, belə baha qiymətlərlə o səviyyədə reklam verməzdim. Çünki bizim televiziyalarda verilən reklamların azı 90 faizi əslində antireklamdır. Reklamın saniyəsinə görə tələb olunan qiymət materialın keyfiyyətinə və təqdimatın effektivliyinə adekvat deyil.

Reklamda yer adları, sözlər, cümlə quruluşlarının səhv deyilməsi və küçə jarqonlarından istifadə etməklə dilin qanunlarını pozurlar. Reklamlar o qədər qeyripeşəkar hazırlanır ki, reklam mətni, orada məhsulun hansı keyfiyyətinə görə reklam olunması, insanların onu nəyə görə seçməli olduğu aydın olmur. Sanki bu çarx tamaşaçını təqdim olunan məhsuldan ikrah etdirməyə çalışır, reklamda deyilən həddən artıq şişirdilmiş bayağı sözlərin bu məhsula heç bir aidiyyatı olmamasını göstərir.

Ən təhlükəli reklamlar gənc və yeniyetmələrə ünvanlaşmış reklam çarxlarıdır. Reklamların çoxu azyaşlı taamaşaçılar üçün dəhşətli anti-psixoterapiyadır. Psixologiyası hələ formalaşmamış uşaq və yeniyetmələrə yalnız əyləncə, laqeydlik, eqozim, narsizm təbliğ olunur. Digər tərəfdən, reklam texnologiyaları ilə milli tamaşaçı kütləsinin psixoloji səviyyəsi indeksasiya edilmir. Əksər reklamlar açıq şəkildə tamaşaçını aldatmağa yönəlib və o qədər savadsızcasına, qeyri-səmimi hazırlanır ki, bunu ən savadsız tamaşaçı, uşaq belə hiss edir.

Bizim reklam hazırlayanlar elə bilirlər ki, reklam çarxına çox səs-küylü, haray-həşirli, gözüyoran videoeffektlər, parlaq və tezdəyişən kadrlar əlavə edilində effektli olur. Amma psixoloqlar deyir ki, bu, tam tərsinədir. Heç kim sürətli kadr dəyişmələri, yalançı səs-küyü, pafoslu və kollektiv deyilmiş ifadələri, mürəkkəb videoeffektləri qavramır və xoşlamır.

Məşhur bir müğənnini reklama çəkmək və ona süni, pafoslu sözlər dedirtmək hələ peşəkar reklam demək deyil. Əksinə, bu əks-effekt verir. Hər kəsin öz zövqü var, öz tələbatı var, kimin nəyinə lazımdır kim hansı məhsuldan istifadə edir? Məgər bu kompyuter müğənnisi o qədər savadlı dahidir ki, hər şeyi doğru seçsin?

Normal reklam çarxı sadə olmalı, şişirtmədən məlumat verməli, iddianı sübut edən videofakt göstərilməli, kadrlar 2 saniyədən tez dəyişməməli, səs rəvan, məlahətli olmalı, mətn sürətlə oxunmamalı, yarım dəqiqədən çox olmamalıdır. Tamaşaçı görməlidir ki, burada onu avam yerinə qoyub aldatmağa çalışmırlar, əksinə, məhsul haqda məlumat verirlər. Yoxsa bunlar elə vəziyyət yaradıblar ki, artıq əksəriyyət reklam olunan malı almır, düşünürlər ki, demək bu mal yaxşı deyil, bizi aldadıb satmaq istəyirlər.

Təəssüf ki, özəl kanallarda prinsiplər belə deyil. Ona görə də onları televiziya yox, reklam kanalı adlandırmaq lazımdır. Əsl televiziyalar artıq internetdə formalaşmağa başlayıb. Onların da problemləri var, amma bu problemlərin getdikcə aradan qalxacağına ümid var. Müşahidələr göstərir ki, artıq insanların çoxu internet TV-lərdə və ya sosial şəbəkə kanallarında videolara baxır. Bu ənənəvi TV-lər üçün SOS ciddi siqnaldır. Televiziyalar isə bu həyəcan siqnalını eşitmirlər.

# Erməni vandalizminin əsas hədəflərindən biri: ekoloji tarazlığı pozmaq

**Ermənistan regionun ekoloji tarazlığı üçün də ciddi təhlükələr yaradır. Torpaqlarımızın işğal altında olduğu 30 il müddətində bədnam qonşumuz yurd yerlərimizi viran qoymaqla, dinc insanları hədəfə almaqla yanaşı, təbiət abidələrini, flora və faunanı da vandalcasına məhv edib.**





Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında Ermənistanın həyata keçirdiyi ekoloji terror nəticəsində 10-dan çox qoruq və yasaqlıq, ölkəmizin "Qırmızı Kitab"ına və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahı"sına daxil olunan nadir bitki və heyvan növləri, Azərbaycan və Qarabağ endemləri birdəfəlik məhv edilib. Təkcə onu qeyd etmək kifayətdir ki, Qarabağ və ətraf ərazilərin 280 min hektardan çox meşə fondu, o cümlədən Avropada yeganə çinar meşəsinin əksər hissəsi, yaşı 120 ildən 2600 ilədək olan yüzlərlə ən qiymətli ağac-təbiət abidəsi vəhşicəsinə talan edilərək Ermənistana daşınıb və ya xarici ölkələrə satılıb.

Bununlada Ermənistan ekoloji mühitin toxunulmazlığı haqqında beynəlxalq konvensiyaların tələblərini, BMT-nin ətraf mühit üzrə müvafiq təşkilatlarının normativ aktlarını kobud şəkildə pozub. Ətraf mühitə və inkişafa dair Rio-de-Janeyro Bəyannaməsinə görə, müharibələr davamlı inkişaf prosesinə dağıdıcı təsir göstərməməlidir. Bu səbəbdən dövlətlər silahlı münaqişələr zamanı ətraf mühitin mühafizəsinə dair beynəlxalq hüquqa hörmət etməlidirlər. Lakin ermənilər nəinki bu prinsipləri gözləmədi, əksinə onları kobud surətdə pozaraq işğal etdikləri ərazilərimizin təbiətini viran qoydular.






Ermənistanın dağ-mədən sənayesinin son illərdəki fəaliyyəti də ciddi narahatlıq doğurur. Çünki bu ölkədə dağ-mədən sənayesi işləri zamanı heç bir ekoloji norma və standartlar gözlənilmir, nəticədə ətraf mühitə vurulan ciddi zərərin, ekoloji fəsadların miqyası sürətlə artır. Ermənistanda genişlənən qanunsuz dağ-mədən işləri səbəbindən isə bölgə ekoloji fəlakətin astanasındadır. Bu isə beynəlxalq miqyasda olduğu kimi, ölkə daxilində də ciddi narazılıqla qarşılanır. Amma Ermənistan rəhbərliyi daxili etirazlara, xarici ölkələrin və beynəlxalq təşkilatların müraciətlərinə məhəl qoymur. Artıq Ermənistanın Cənubi Qafqazı ekoloji fəlakət bölgəsinə çevirməsi beynəlxalq miqyasda narahatlıqla qarşılanır. İndi bütün dünya anlayır ki, işğalçı ölkənin bu qanunsuz əməlləri təkcə region deyil, həm də bütün bəşəriyyət, ümumi evimiz olan planetimiz üçün ciddi təhlükə yaradır. Hələ cari ilin 31 yanvar tarixində 22 ölkəni təmsil edən 49 QHT və ekofəallar Azərbaycan və Ermənistanın qeyri-hökumət təşkilatlarının səsinə səs verərək həmrəylik nümayiş etdiriblər. Onlar Ermənistanın dağ-mədən sənayesində beynəlxalq ekoloji norma və standartları pozaraq həyata keçirilən işlərin dünyanın ekosistemini pozmasına dair bəyanat yayıblar. Onların bu xoşməramlı bəyanatında Cənubi Qafqaz regionu üçün ekoloji ədalət tələb olunur.

İkinci Qarabağ müharibəsindən sonra aşkarlanan minaların 2021-ci ildə istehsal edilməsi onu göstərir ki, hayların bu terrorçu əməli sülh prosesi çərçivəsində də davam etmişdir. Problem hələ var və nə qədər insanımız həlak olub, nə qədər insanımız sağlamlığını itirib əlil olub, təbiətimizə, heyvanat aləminə nə qədər ziyan dəyib, bunu mütəxəssislər dəfələrlə bəyan ediblər. Belə ki, İkinci Qarabağ müharibəsindən indiyədək 340-dan çox soydaşımız minaya düşərək həlak olmuş və ya xəsarət almışdır.

Bu gün minaların mövcudluğu nəticəsində ekosid davam edir. Azad olunmuş ərazilərdəki heyvanlar da minaların qurbanı olurlar. Mina terroru həm də ekoloji tarazlığın pozulmasına gətirib çıxarır. Ermənistan tərəfindən heyvanlara, vəhşi faunaya qarşı sərgilənən bu cür qəddar münasibət yolverilməzdir. Cənubi Qafqaz kimi biomüxtəliflik cəhətdən zəngin bir regionun nadir təbiət inciləri, heyvanları bu cür rəftara məruz qalmamalıdır.

Ermənistan bu anti-humanizm hərəkətlərinə, eko müharibəyə, faunaya qarşı qəddarlığa görə cavab verməlidir. Beynəlxalq ictimaiyyət Ermənistan hakimiyyətinə torpaqlarımızda basdırılmış minaların dəqiq xəritələrini ölkəmizə təqdim etməsi üçün ciddi təzyiq göstərməlidir. Əks halda terrorçu ölkə ətraf mühitə, biomüxtəlifliyə qarşı yeni cinayətlərə təşəbbüs göstərəcək.

***Nigar Orucova***

# “Ermənistanda revanşist qüvvələrin ərazi bütövlüyümüzə qarşı fəaliyyəti həyasız forma alır”







“Ermənistanın 2020-ci ilin 10 noyabrında imzalanmış Üçtərəfli Bəyanatının tələblərini artıq 4-cü ildir ki, yerinə yetirməməsinin səbəbi əslində başlarına dəyən dəmir yumruğa rəğmən, separatizmdən, işğalçılıq siyasətindən imtina etməmələrinin nəticəsidir. Görünən budur ki, ”ermənizm xəstəliyi” davam edir. Təkcə Qarabağdakı qondarma rejimin İrəvana rədd olmuş qalıqları deyil, bütövlükdə Ermənistanda separatizm, revanşım meylləri getdikcə artır. Reallıqları qəbul edən Rusiyadan üz döndərib, separatizmi öz maraqları, siyasətlərinə görə dəstəkləyən Qərb, Avropa dairələrinin qucağına tam atılmaları heç də təsadüfi deyil. Başıboş topluma elə gəlir ki, Qərb dairələri ilə birlikdə Azərbaycanın qurduğu ədalətli düzəni poza biləcəklər, Cənubi Qafqazda yaratdığı yaranan yeni tendensiyaları, reallıqları dəyişə biləcəklər. Bu xülyaya qapılıblar və bu səbəbdən sülhə yox, Qərbdəki anti-Azərbaycan dairələrə bel bağlayıb ümid edərək revanşa cəhd edirlər”. Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Elşad Məmmədli deyib.

Elşad Məmmədli sözlərinə belə davam edib: ”Burada bir xüsusi məqama diqqət çəkməliyik: Prezident İlham Əliyev 28 fevralda alman iş adamlarını qəbul edərkən çox mühüm bir bəyanat, mesaj verdi. Onun verdiyi mesaj və bəyanatlar ABŞ və Fransaya mənasız cəhdləri dayandırmaq üçün ciddi siqnal kimi başa düşülməlidir.

Sitat: ”30 illik bir müddətdə özlərini beynəlxalq birlik adlandıran Fransa, ABŞ və Rusiya - həmsədrlər ədalətin bərpa olunması üçün heç bir addım atmadılar. Və biz öz torpaqlarımızı azad etməyə başlayanda bu üç ölkə bizə təzyiqlər göstərməyə başladı. Hər biri bizi öz yolumuzdan döndərmək üçün müxtəlif alətlərdən istifadə etdilər. Onlar istəmirdilər ki, biz öz torpaqlarımızı azad edək. Ötən ilin sentyabrında biz separatizmə son qoyduğumuz zaman onlar yenə də səhv etdilər. Onların bəziləri indi də səhv edirlər. Mən ABŞ və Fransanı nəzərdə tuturam. Düşünürəm ki, Rusiya indi nəyin baş verdiyini yaxşı anlayır və yeni reallıqları qəbul edir. ABŞ və Fransa da eyni cür hərəkət etməlidirlər. Əks təqdirdə, vəziyyət onların planlaşdırdığı kimi olmayacaq. Bu ölkələr Cənubi Qafqazda buranın aparıcı ölkəsi, iqtisadiyyatı, ordusu, geniş beynəlxalq əlaqələri olan Azərbaycan ilə işləməlidirlər”.

Təbii, bunu ağlı olan hər kəs dərk edir. Ancaq təəssüflər olsun ki, Ermənistanda xeyli ağılsız siyasətçilər və onların küyünə düşmüş kütlələr var. Habelə, Qərbdə də anti-Azərbaycan dairələr geri çəkilmir, Cənubi Qafqazda Rusiya ilə nüfuz savaşında önə çıxmaq üçün erməni kartından yararlanmaq istəyənlər də öz missiyasında davam edəcək. Fakt isə bundan ibarətdir ki, ”miatsum” ideyası, ”artsax” gorbagor olsa da, erməni lobbisinin, Ermənistanda radikal-revanşist qüvvələrin ərazi bütövlüyümüzə qarşı fəaliyyəti həyasız forma alır.

Məsələn, yanvar ayında uydurma ”artsax parlamenti” Ermənistanın sabiq xarici işlər naziri (1998-2008) Vardan Oskanyanın rəhbərliyi ilə ”artsax üzrə beynəlxalq komitə” yaradıb. Bu mənfur qurum ”artsax ermənilərinin öz evlərinə qayıdışının və digər əsas hüquqlarının təmin edilməsinə” nail olmağı qarşısına hədəf qoyub. Bu sarsaq işlərinə dəstək almaq üçün Oskanyan və ”komitə”nin bir sıra üzvləri bir neçə həftədir ki, xaricdədir. Onlar Avropanın müxtəlif siyasi xadimləri, beynəlxalq strukturların nümayəndələri ilə intensiv görüşlər keçirirlər. O, Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaarla görüş keçirib. ”Komitə” belə bir açıqlama yayıb ki, hazırda beynəlxalq mandat almaq üçün işlər görürlər.

Hansı beynəlxalq mandatdan söhbət gedə bilər? Bəli, bu fikirlə tamamilə razıyam ki, Paşinyan və onun hökuməti də separatçılara dəstək verir. Onun martın 12-də verdiyi axmaq bəyanatlar da bunun təsdiqidir. Məsələn, Paşinyan dedi ki, Azərbaycanın hazırda Ermənistanın işğalında qalmış kəndlərini geri qaytarmaq niyyətində deyillər. Faktiki olaraq sülh və delimitasiya ilə bağlı razılaşmalardan boyun qaçırmaqla Paşinyan de-fakto separatçılara, revanş cəhdi edənlərə dəstəyini ifadə etmiş olub.

Bütün bunlardan sonra belə qənaətə gələ bilərik: ABŞ və Fransanın Ermənistan vasitəsilə Cənubi Qafqaza nüfuz edib, ermənilər vasitəsilə burada öz istədikləri konfiqurasiyanı qurmaq cəhdlərinə İrəvan bütün imkanları ilə alət olmağa qərarlıdır. Ancaq nəticə nə olacaq?

Bütün hallarda bu, Ermənistanın boynuna kəndir keçirməsi, özünəqəsdidir. Tutaq ki, revanş cəhdləri hərbi təxribatlara qədər davam edə bilər, bəs bu zaman nə olacaq, bilirlərmi? Yenə minlərlə meyitləri İrəvanda basdırmağa yer tapmayacaqlar. Azərbaycanı hər hansı hərbi təxribatla, revanş cəhdi ilə qorxutmaq mümkün deyil. Nəzərə alsaq ki, söhbət Ermənistanın Azərbaycan ərazisinə qəsdindən, təxribat cəhdindən gedir, o zaman dəstəkçiləri Fransa, Hindistan qarşılarında həm də Türkiyəni görəcək, Şuşa Bəyannaməsi işə düşəcək.

Düzdür, təxribatlarla bölgədə müəyyən gərginliklər, çətinliklər yarada bilərlər, ancaq heç bir halda dövlətçiliyi laxlamış, hər hansı bir nüfuzu, imkanları olan Ermənistan üzərindən Cənubi Qafqazı şəkilləndirmək mümkün deyil.

Əgər ideoloji olaraq torpaq, ərazi iddiaları kimi mənfur, əsassız, çürük və məhv edilmiş ”ideyalarını” davam etdirsələr, o zaman Azərbaycan dövləti tam haqlı olaraq və tarixi faktologiyaya əsaslanaraq, Qərbi Azərbaycan məsələsini rəsmən bəyan edə bilər. Əgər bunu istəyirlərsə, buyursunlar...”.

***Ayşən Vəli***

*AYDINLIQ GƏTİRİLDİ*




# “TikTok” platforması bu tarixdə bağlanır?

”“TikTok”la bağlı narahatlıq artır”. Bu sözləri SİA-ya açıqlamasında İnformasiya Texnologiyaları Elmləri üzrə ekspert Fərrux Rəcəbli deyib. O bildirib ki, artma səbəbi də məlumdur: ”Birinci səbəbi, bu gün ”Tiktok”un başqa məqsədlərlə istifadə olunmasıdır. Bəzi insanlar tərəfindən əxlaqi, milli-mənəvi, ailə dəyərlərinə zidd davranışlar sərgilənir. Çünki bir çox fenomenlər var ki, onlar ”TikTok”da ancaq bununla məşğuldurlar. Əxlaqsızlığı, tərbiyəsizliyi təbliğ etməklə, milli-mənəvi dəyərlərimizə zidd davranışlarla Azərbaycan vətəndaşı olaraq bizi digər ölkə istifadəçilərinin qarşısında biabır etməklə məşğuldurlar. Çox acınacaqlı vəziyyətdir. Çünki bir çox ölkələr var ki, bizə baxırlar və bilən bilir ki, Azərbaycanda milli-mənəvi dəyərlər yüksəkdir. Bizi izləyəndən sonra fikirləri dəyişir. Baxırlar ki, Azərbaycanda deyilənlə görünən eyni deyil.

Çox təəssüf olsun ki, dövlət orqanları da buna ciddi nəzarət etmir. Bəzi dünya ölkələrində ”TikTok” və digər sosial şəbəkələr üzərində çox ciddi şəkildə nəzarət var. Hətta bəzi ölkələrdə, ümumiyyətlə, ”TikTok”dan istifadə qadağandır. Amma Azərbaycanda hələ ki, belə bir şey yoxdur. Deyilənə görə bu yaxınlarda ”TikTok” adminstrasiyası Azərbaycana gələcək və yeni qaydalar tətbiq edəcəklər, ”TikTok”u ciddi nəzarətə alacaqlar. Əgər doğrudursa, ”TikTok”dan pul qazananlar dövlətə vergi ödəyəcəklər. Hələ ki, reallıq öz əksini tapmayıb.

Məsələ odur ki, bir çox ”məşhurlarımız” pula, jetona görə sosial şəbəkələrdə hər alçaqlığı, tərbiyəsizliyi edirlər. Bununla da qürur duyurlar. Onlara canlı yayımda sual verirlər ki, pula görə niyə özünüzü bu vəziyyətə salırsınız? O qədər qürurla cavab verirlər ki, etdikləri hərəkətlə qururlanırlar. Bunlar mənəvi dəyərləri olmayan insanlardır. Təəssüflər olsun ki, belə bir reallıq var ki, sosial şəbəkələrdə bu gün maarifləndirici məlumat paylaşanların heç biri izlənmir, onlara maraq yoxdur. O insanların canlı yayımına baxsanız görəcəksiniz ki, onları izləyənlərin sayı maksimum 10-15 nəfərdir. Kim ki meymunluq edir, əxlaqsızlığı təbliğ edir, jetona görə şərəfini, ləyaqətini ortaya qoyur, onları minlərlə insan izləyir və cürbəcür məbləğdə hədiyyələr atır, dəstək olurlar. İnsanlar bundan həzz alırlar. Bu, izləyicilərə başqa cür həzz verir. Məncə, bu cəmiyyətdə olan anormal psixologiyadır. Həmin insanların da o canlını açan insanlardan heç bir fərqi yoxdur. Ən acınacaqlısı da odur ki, bizi bu vəziyyətə salanların faiz yüksəkliyi xanımlardır. Biz xarici ölkələrə çıxdığımız zaman Azərbaycan milli dəyərlərindən danışanda, Azərbaycan xanımlarının şərəf, qeyrətindən danışanda ”TikTok”u qarşımıza qoyurlar. Bizə deyirlər ki, buyurun, bu da sizin Azərbaycan xanımınız”.

”Çox heyif ki, dövlət qurumları, hüquq-mühafizə orqanları bununla bağlı heç bir tədbir görmürlər. Dövlət qurumlarına qarşı hər hansı səhv olunarsa, həmin insanları polis bölməsinə gətirirlər, orada üzrxahlıq videosu çəkib paylaşırlar. Əgər dövlət qurumlarına, hüquq-mühafizə orqanlarına qarşı təhqir zamanı bunu etmək mümkündürsə, niyə bunu normal hallarda etmək mümkün deyil? Bir xanım çıxıb bizim milli-mənəvi, əxlaqi dəyərlərimizi alçaldırsa, bir bəy çıxıb Azərbaycan kişisinin şərəf, ləyaqətini alçaqdırsa, niyə bu halda onlara qarşı heç bir tədbir görülmür? Deyilənə görə Azərbaycana adminstrasiya gələcək. Guya, bu işi ciddi nəzarətə alacaqlar. Amma inanmıram. Maksimum gəlib hansısa filtirləri tətbiq edəcəklər. Ən yaxşı halda o olardı ki, bu ”məşhurlar”ın hamısının ”TikTok” istifadəsinə qadağa qoyulsun.

### ”TikTok” platforması bağlanmalıdırmı?

”TikTok” platformasını yaradanlar onu o məqsədlə yaratmayıblar ki, kimsə çıxıb orada əxlaqsızlıq, meymunluq etsin. O məqsədlə yaradılıb ki, insanlar özləri ilə bağlı hansısa məlumatı paylaşsınlar, canlı yayım açıb söhbət etsinlər, oyunlar oynasınlar. Hətta pul da qazanmaq olar, heç bir problem yoxdur. ”TikTok”u yaradan insanların əziyyəti var. Bu gün hansısa ölkədə lazımsız məqsədlə istifadə olunur deyə, Azərbaycanda biabırçı hal alıb deyə, ölkəmizin dəyərləri aşağı düşüb deyə, kiminsə zəhmətini, haqqını taldalaya bilmərik. ”TikTok” platformasının bağlanmasını tələb etmək haqsızlıqdır. Ən yaxşısı, platformanın çox ciddi nəzarətə alınmasını tələb edə bilərik. Platformadan lazımsız insanların girişinə qəti şəkildə qadağa qoyulmasını tələb etsək, doğru olar. Bu, digərlərinə nümunə olar. Bundan sonra ”TikTok”la bağlı narahatlıqlarımız da aradan qalxacaq. Düşünürəm ki, bizim üçün böyük dəyişikliklər olacaq.

”TikTok”un bu hal alması ən çox gənc nəslə təsir göstərir. Çünki gənc nəsillər, uşaqlar, yeniyetmələr ”TikTok”a daxil olanda bunlardan başqa heç nə görmür və nümunə götürürlər. Çünki hamı istəyər ki, məşhur olsun. Onlar da bu hissə qapılırlar. Ümid edək ki, bu məsələ ilə bağlı yaxın zamanlarda ciddi dəyişikliklər olacaq. Hər şey bir tərəfə, məncə, Azərbaycanı başqa cür tanımaqları, kişi, xanımlarımızı dünyaya başqa cür tanıtmaq bizim üçün ən ciddi məsələ olmalıdır. Biz bunu doğru etməliyik” - deyə o əlavə edib.

***Söylü Ağazadə***

Dağıdıcı müxalif baş bilənlərinin səhv, yanlış siyasət aparmaları nəticə etibarı ilə partiyaların acınacaqlı durumla üzləşmələrinə gətirib çıxarıb. Qopmalar, kütləvi istefalar, seçkilər də məğlubiyyətlər məhz yanlış siyasətin bədəlidir. Dağıdıcı müxalif baş bilənlərinin yanlış, səhv siyasət aparmalarından partiyalar acınacaqlı problemlərlə üzləşirlər. Dağıdıcı müxalif baş bilənlərinin vəziyyəti dəyişmək, üzləşdikləri ağır problemləri aradan qaldırmağa cəhd etməmələri mövcud durumlarının daha da ağırlaşmasına təkan verir. Bu amilin özü təsdiq edir ki, dağıdıcı müxalifət düşərgəsində aydın düşüncəli, sağlam fikirli, açıq, demokratik mübarizə aparmaq gücündə və istəyində olan partiya sədrləri yoxdur. Yəni ötən əsrin 90-cı illərin də hansı ağılda və düşüncəsində idilərsə, bu gün də eyni təfəkkürdədilər. Diqqətçəkən məqam həm də ondan ibarətdir ki, dağıdıcı müxalif ünsürlərin öz aralarında da münasibətlər arzu edilən səviyyə də deyil. Hər bir partiya digərinə meydan oxuyur və fürsət yarandıqca, rəqib hesab etdiyi təşkilatı əzməyə, sıradan çıxartmağa çalışır. Bu kimi düşmənçilik daha çox AXCP ilə Müsavat arasında yaşandığını desək səhv etmərik. Əzəli rəqiblər olan bu partiyalar daim bir-birini sıradan çıxartmaq üçün hər cür vasitə və üsullardan istifadə edirlər. Düşünmək olardı ki, İsa Qəmbərin başqanlıq dönəminin bitməsindən sonra Əli Kərimli Arif Hacılı ilə münasibətləri yaxşılaşdırmağa çalışacaq. Lakin gözlənilənlərin əksinə olaraq, AXCP-Müsavat qarşıdurması A.Hacılının başqanlığa gətirilməsindən sonra daha geniş xarakter aldı. Ə.Kərimli A.Hacılını başqan seçilməsi münasibəti ilə təbrik etmək əvəzinə, onu aşağılayan fikirlərlə çıxış etməsi düşmənçiliyin fərdlərlə deyil, Müsavatın ideologiyasına bağlı olduğunu göstərir.

# Arif Hacılı yarasız hesab olundu

*İsa Qəmbər yenidən başqanlığa qayıdır*



## Arif Hacılının kitabını Əli Kərimli bağladı

Müsavatın Milli Şuradan istefa verməsindən sonra Ə.Kərimli və ətrafındakı trollar açıq tezislərlə Müsavatı təhqir etməyə başladılar. Əli Kərimli sosial şəbəkə hesabında yazdı ki, Müsavat A.Hacılının başqanlığı dönəmində mövcudluğunu itirə bilər: ”Hansı parametr üzrə Müsavat AXCP ilə müqayisə oluna bilər? AXCP-nin təkcə gənclər komitəsi Müsavat partiyasından üstündür. Bəlkə, Müsavatın meydan gücü AXCP-dən artıqdır? Müsavat ”Milli Şura”dan çıxdıqdan sonra neçə nəfəri yeni üzv qəbul edib? Xeyli müddətdir ki, AXCP Müsavatı rəqib görmür və heç bir parametr üzrə də rəqabət aparmağa əsas yoxdur. Çünki partiya əsas etibarilə sağlamdır”. Növbəti mərhələ də proseslər o dərəcə gərgin xarakter aldı ki, artıq Əli Kərimli ilə Arif Hacılı nəinki hansısa bir tədbirdə görünmək, hətta adlarının bir siyahıda çəkilməsini istəmədilər. Məhz bu səbəbdəndir ki, A.Hacılı Ə.Kərimlinin də təmsil olunduğu ”Elçibəy İnstitutu” adlı qurumdan istefa verdiyini bəyan edib. İstefa bəyanatında A.Hacılı qırmızlılıq edərək, mövcud reallıqları dilə gətirib: ”Təsisçilərindən biri olduğum ”Elçibəy İnstitutu” adlı qurumdan istefa verirəm. Səbəb ”Elçibəy İnstitutu”nun aparıcı üzvlərinin Elçibəyin yüksək adından onun irsini tədqiq və təbliğ etmək üçün deyil, Müsavatın təməl prinsipləri ilə üst-üstə düşməyən şəxsi maraqları naminə istifadə etmələridir” . Bununla da A.Hacılı məhz əyani şəkil də Ə.Kərimlinin sifətini görməmək üçün qurumdan istefa verdiyini nümayiş etdirib. Həm də A.Hacılı ”Elçibəy irsini tədqiq və təbliğ etmək üçün deyil, şəxsi maraqları naminə istifadə edirlər” deməklə əlindəki daşları birbaşa Ə.Kərimliyə atmış olur.

## İsa Qəmbər yenidən başqanlığa qayıtmaqla səhvlərini düzəltməyə ümid edir

Baş verənlər fonunda o fikri vurğulamaq olar ki, dağıdıcı müxalifət düşərgəsində Ə.Kərimli A.Hacılıdan üstündür. Bu da Ə.Kərimlinin xarici maraqlı dairələrlə ”səmərəli” iş qurması və daxil də böhtan xarakterli çılğın fəaliyyətə daha çox yer verməsi ilə bağlıdır. Ə.Kərimlinin üstünlüyü və A. Hacılının zəifliyi müsavatçıları narahat etsə də başqa çıxış yolu olmadığından susmağa məcbur olublar. Hətta bəzi müsavatçılar müəyyən hallarda A.Hacılını başa düşməyə çalışırlar. Çünki, istənilən qərarın qəbulunda və addımların atılmasında A.Hacılı özü müstəqil mövqeyə malik olmayıb. Yəni İsa Qəmbər rəsmən başqan olmasa da Müsavatın siyasi xətti onun rəyi ilə həyata keçirilib. Bu da o anlamı yaradır ki, A.Hacılının başqanlığı formal xarakter daşıyıb. Ancaq mayın 1-də keçirilməsi nəzərdə tutulan Müsavatın növbəti qurultayında bu formallığın aradan qaldırılması və İsa Qəmbərin yenidən başqanlığa gətirilməsi planlaşdırılır. Bununla bağlı Müsavatın qərargahında törən də təşkil edilib. Törən də tərtib olunan tezislərlə çıxış edən Müsavatın Məclis sədri Nüşabə Sadıqlı ilk öncə Arif Hacılını ağ yuyub qara sərib. Haqqında hər cür təhqiramiz ifadələr səsləndirib. Son da isə Müsavat Partiyasının sabiq rəhbəri İsa Qəmbərin yenidən başqanlığa namizəd olması təklifi ilə çıxış edib. Hətta N.Sadıqlı bəyan edib ki, partiyanın rayon təşkilatlarında keçirilən ümumi yığıncaqlarında da İsa Qəmbərin yenidən namizədliyini irəli sürməsi ilə bağlı çoxsaylı üzvlərdən müraciətlər daxil olub. Halbuki, qurultayın keçirilməsi qərarı martın 30 -da təşkil edilən partiya məclisinin iclasında verilib. Həmin iclasda da İ.Qəmbərin başqanlığa gətirilməsi təklifi irəli sürülüb. Bu səbəbdən də necə ola bilər ki, qurultay planlaşdırılmadan və qurultaya hazırlıq üzrə rayon təşkilatlarının konfransları keçirilmədən yerlərdən İ.Qəmbərin başqanlığa gətirilməsi təklifləri irəli sürülür? Müəmmalı və ironiya ilə qarşılanan haldır. Burda deyiblər, kefin olsun. İsa Qəmbər. Ən maraqlısı isə sözügedən törən də Məclisin üzvləri yekdilliklə İsa Qəmbərin başqanlığa layiqli namizəd olduğunu bildiriblər. İsa Qəmbər isə özünü məsələdən bixəbər kimi göstərməyə çalışıb və bu etimada görə partiya üzvlərinə təşəkkür edib, təklifləri nəzərdən keçirəcəyini, düşünəcəyini və yaxın günlərdə qərarını açıqlayacağını bildirib. Qərar heç şübhəsiz ki, müsbət olacaq. Çünki özünün qurduğu oyunu, özü də başa çatdıracaq.

***İLHAM ƏLİYEV***

# “Bu qidalar mənşəyi məlum olmayan xəstəliklərə gətirib çıxara bilər”

**“Ölkənin əmtəə bazarında kolbasa və sosiska məmulatlarına böyük seçim və imkan var”. Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib.**



O bildirib ki, 20-yə qədər kolbasa, sosiska məmulatlarının yerli istehsalçıları var: ”Eləcə də xarici ölkələrdən də kifayət qədər gətirilir. Lakin bu bazar həddindən artıq çirklənmiş vəziyyətdədir. Təəssüflər olsun ki, istehlakçıların xarici istehsala maraqları var. Yerli ət məmulatları istehsalçılarının bəzilərini istisna etməklə yerli kolbasa və sosiska istehsalı və malları xarici istehsaldan çox üstündür. Bir çox ölkələrdən, o cümlədən Rusiya, Belarusiyadan gətirilən kolbasa və bu tipli məmulatlar yaxşı etiketlənir, onlara çoxlu dadverici, qoxuvericilər vurulur və sair. Lakin insanlar bilmirlər ki, onun tərkibində ətin miqdarı çox azdır və ətin də mənşəyi əksər hallarda naməlum olur. Bununla belə yerli istehsalda da problemlər var. Bir neçə barmaqla sayılan miqdarda normal kolbasa istehsalçıları var ki, onlar yerli heyvan ətlərindən və bəzi hallarda Hindistandan gətirilən təmiz camış ətindən kolbasa istehsalı ilə məşğul olurlar. Bütün hallarda bu mallar tez xarab olmasın deyə, xarici və yerli müəyyən qida əlavələri ilə zənginləşdirilir. Əksər hallarda onların tərkibinə nitratlar vurulur. Nitratlar ümumiyyətlə arzuolunmaz komponentdir”.

”Belə kimyəvi maddələr insana zərərlidir. Ona görə kolbasa məmulatlarını standartlara uyğun istehlak etmək lazımdır. Təsadüfi deyil ki, məktəb bufetlərinə dair standartlar qəbul olunub. Həmin standartlarda məktəb bufetlərində kolbasa məmulatlarının satışına icazə verilmir. Bu da təsadüfi deyil. Lakin istehlakçılar ucuz bu cür mallara bəzən üstünlük verirlər. Biz görürük ki, metro çıxışlarında, xüsusilə 8-ci km bazarında heç bir etiketi olmayan qızardılmış kolbasalar insanları cəlb edir. Bunlar əslində təhlükəli mallardır. Bu bazar həddindən artıq çirklənibdir. Çox təəsüf edirəm ki, standartlara uyğun normal kolbasa istehsalçıları öz bazarlarını təmizləmək üçün heç bir iş görmürlər. Bunlar media, ictimai təşkilatlarla əlbir işləsinlər ki, bazar təmizlənsin. Tədqiqat göstərir ki, əslində bu qanunauyğun kolbasa istehsalçılarının saxta istehsalçılarla müəyyən əlaqələri var. Həddindən artıq passivlik göstərilir.

Çox yaxşı haldır ki, Qida Təhlükəsizliyi Agentliyi kolbasaların etiket məlumatları ilə onların tərkibinin araşdırılması barədə işlər aparır. Bu ilin yanvarından bu belədir. Bəzən halal adı altında buraxılmış kolbasaların içində donuz ətinin olduğu da müşahidə olunur. Qida Təhlükəsizliyi Agentliyi bunları ifşa edir. Ümumiyyətlə, kolbasa və ət məmulatlarını minimum miqdarda istehlak etmək lazımdır. Bunlar əgər çox istifadə olunarsa, ciddi mədə-bağırsaq, mənşəyi məlum olmayan xəstəliklərə gətirib çıxara bilər.

Standartlara uyğun kolbasa istehsalçıları var. Onlar hətta sosiskaların bir neçə dənədən sonra üzərinə son yararlılıq müddətini yazırlar. Lakin kənar ölkələrdən gətirilən kolbasa və sosiska məmulatlarının yararlılıq müddəti uzun olur. İstehlakçılar bunları da nəzərə almalıdırlar” - deyə o əlavə edib.

***Söylü Ağazadə***

## DİQQƏT: Azərbaycanda 4 günlük iş rejiminə keçilir?

“Qanunvericilikdə Azərbaycanda 4 günlük iş rejiminə keçməklə bağlı əngəl yoxdur. İşçinin az işləməsi ilə bağlı qanunda hər hansı bir məhdudiyyət yoxdur. Lakin cəmiyyət, biznes mühiti buna hazır olmalıdır. Bu rejimə keçmək üçün ilk növbədə sosial sifariş olmalıdır”. Bu sözləri SİA-ya danışan hüquqşünas Şamil Paşayev deyib.



Hüquqşünas, bu rejimin müsbət və mənfi tərəfləri haqqında da danışıb: ”Müsbət tərəfi odur ki, istirahət üçün insanların daha çox zamanı olur. Bu da daha yüksək iş potensialı ortaya qoymağa kömək edir. İnsanların 4 gün işləməsi daha məhsuldar olması deməkdir. Lakin bu rejimin mənfi tərəfləri də var. İş günü azaldılarsa, gəlir səviyyəsi aşağı düşə bilər. Məsələn, indi hər hansı şirkətin 10 işçi üçün 10 min manat maaş bazası var. Həftədə 4 günlük iş rejiminə keçdikdə isə şirkət işçi sayını artırmağa məcbur olacaq. Bu zaman da gəlirlər və maaş bazası eyni qaldığı üçün həmin 10 min manatı 15 nəfər arasında bölüşdürməyə çalışacaq. Bu da təbii ki, işçilər üçün əlverişli hal olmayacaq”.

Onun sözlərinə görə, 4 günlük iş rejiminin digər bir mənfi tərəfi isə odur ki, Azərbaycana Hindistandan, Pakistandan xeyli miqrant gəlir, onlar həftədə 6-7 günlük iş rejiminə belə qane olurlar. Azərbaycanlı işçilər onlarla rəqabətə girə bilməyəcək.

Azərbaycanın mövcud iş rejimi düzgün formalaşdırılmalıdır. Ölkəmizdə 5 günlük, yəni həftədə 40 saatlıq iş rejimi tam şəkildə yerinə yetirilmir. Xidmət sektorunda gündə 8 yox, 10-12 saat işləyirlər. İlk növbədə bunun qarşısını almalıyıq. Daha sonra diqqət etməli olduğumuz məsələ insanların saatlarla tıxacda qalmasıdır. Əksər işlər 9-dan 6-ya kimi olur. İnsanlar işə gedib-gələndə toplam 1-2 saatlarını tıxacda keçirir. Burada itirdikləri vaxt da iş saatlarına əlavə edilməlidir. Bu zaman saat 9-da işə gəlib, 5-də işdən çıxa bilərlər”.

***Ləman Sərraf***

# Ənənəvi, yoxsa yaşıl enerji: gələcək hansınındır?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə Ekologiya və ətraf mühitin mühafizəsi istiqaməti çərçivəsində hazırlanıb*





***Sürətlə gedən qlobal iqtisadi inkişaf özü ilə həm sənaye, həm də xidmət sektorlarının fəaliyyəti üçün zəruri olan enerjiyə tələbatı artırır. Sənaye istehsalından tutmuş, kənd təsərrüfatı, emal və nəqliyyat kimi müxtəlif xidmət sahələrində, məişət texnikası və cihazların enerji təchizatına qədər bütün ehtiyacları qarşılayan enerji təminatı təbiətə zərər vermədən necə əldə edilməlidir?***

Hazırda ənənəvi üsullarla enerji istehsalı çox miqdarda istixana qazlarının atmosferə buraxılması deməkdir. Bu da təbii mühitin ciddi şəkildə çirklənməsinə gətirib çıxarır. Bu proses daşqınların və qasırğaların intensivliyinin artmasına, buzlaqlarının əriməsinə, bəzi canlıların yox olmasına səbəb olur.

## Yaşıl enerji nədir?

"Yaşıl enerji" bərpa olunan mənbələrdən istehsal olunan enerjiyə deyilir. Sənayedə ekoloji tendensiyaların inkişafı nəticəsində yaranan bu enerji növü, davamlı istehsal və istehlak məqsədlərini güdən şirkətlərin strategiyalarında əsas prioritetə çevrilib. Yaşıl enerjinin istehsal olunduğu bərpa olunan mənbələr külək, günəş radiasiyası, geotermal ehtiyatlar, okean dalğaları, biokütlə, bioqazlar və biomayelərdir.

Ən çox inkişaf etdirilmiş ekoloji bərpa olunan enerji mənbələri külək, günəş və sudur. Dünyanın bir çox ölkəsində elektrik enerjisinin böyük əksəriyyəti hələ də qalıq yanacaqların, ilk növbədə kömürün yandırılması hesabına əldə edilir. Hamıya məlumdur ki, ənənəvi üsullardan istifadə edilən enerji istehsalı prosesləri həm yerin üstündə, həm də altında havanı, torpağı və suyu effektiv şəkildə çirkləndirən böyük miqdarda karbon qazı ($CO_2$) və bir çox digər zərərli maddələr əmələ gətirir. Bərpa olunan enerji mənbələri enerji istehsalının ənənəvi üsullarına ən yaxşı alternativdir. Xüsusən də elektrik enerjisi istehsal etmək üçün onlardan istifadə atmosferi əhəmiyyətli dərəcədə qoruyur.

Artıq bir neçə ildir ki, enerji bazarının bərpa olunan enerji mənbələrinə çevrilməsi bütün dünyada aydın görünür. Bərpa olunan enerji mənbələri xüsusilə yüksək inkişaf etmiş ölkələrdə getdikcə populyarlaşır. Qlobal enerji keçidinin dinamikasına Avropa İttifaqı və ya dünyanın bir çox ölkəsində qəbul edilmiş qanunlar fonunda ayrı-ayrı ölkələrin hökumətlərinin öhdəlikləri təsir göstərir.

Bundan başqa, Ukraynadakı müharibə ilə bağlı geosiyasi vəziyyət kontekstində bərpa olunan enerji mənbələri sektorunun sürətli inkişafı, ölkələrin enerji təhlükəsizliyini təmin etmək üçün vacibdir. Avropanın üzləşdiyi iqtisadi fəsadlar ayrı-ayrı ölkələrin və regionların enerji müstəqilliyinə malik olmasının nə qədər vacib olduğunu göstərir. Buna görə də bərpa olunan mənbələrdən enerjiyə əsaslanan texnologiyalara sərmayə qoymaq çox vacibdir.

## Enerji alternativləri - davamlı, zərərsiz

Bərpa olunan enerji mənbələri kömür, neft və təbii qaz kimi bərpa olunmayan xammala əla alternativdir. Günəş enerjisi bərpa olunan enerjinin ən populyar növüdür. Fotovoltaik sistemlər və günəş enerjisi kollektorları sayəsində enerji günəşdən əldə edilir. Bu üsul, günəşin istiliyini elektrik enerjisinə çevirmək üçün tutur, ikincisi isə, məsələn, məişət və ya sənaye sistemlərində isti su hazırlamaq üçün istifadə edilə bilən istilik enerjisinə çevirir.

Yaşıl enerjinin digər vacib sütunu külək stansiyalarıdır. Onlar kinetik enerjini elektrik enerjisinə çevirən səmərəli turbinlərdən və avadanlıqlardan ibarətdir. Aydındır ki, külək enerjisindən istifadə edərək bərpa olunan enerji istehsalı küləyin yüksək olduğu yerlərdə daha sərfəlidir. Sizcə də Bakının həmişə şikayətləndiyimiz küləyi həm də enerji əldə etmək üçün böyük şans deyilmi?



Hidroelektrik enerji daxili suların təbii axınlarından istifadə olunaraq əldə edilir. Su elektrik enerjisi əsasən kifayət qədər güclü cərəyan və ya sıldırım yamacı olan çaylardan alınır. Elektrik enerjisi, mexaniki enerjini elektrik enerjisinə çevirən xüsusi turbinlərlə təchiz edilmiş su elektrik stansiyalarında istehsal olunur.

Yaşıl enerjinin növbəti mənbəyi yeraltı sularda və plutonik suxurlarda olan geotermal istilikdir. Ona yerin altından gələn enerji deyirik, bu enerji növü ilk növbədə istilik mənbəyi kimi istifadə olunur. Geotermal istilik enerji istehsal etmək üçün iki yolla istifadə edilə bilər - dolayı və birbaşa.

Biokütlədən alınan enerji də inkişaf etdirilməli olan enerji mənbəyidir. Biokütlə, bitki və ya heyvan mənşəli maddələrdir. Həm təsərrüfatlardan, həm də ev təsərrüfatlarından əldə edilən tullantılar və qalıqlar yandırma, qazlaşdırma və ya esterifikasiya proseslərinə məruz qala bilər və bu üsulla enerji əldə edilir.

## Yaşıl enerji gələcəyin enerjisidir

Enerji təminatında yaşıl enerjinin payının əhəmiyyətli dərəcədə artırılması və bərpa olunmayan resursların gələcəkdə tamamilə bərpa olunan enerji mənbələri ilə əvəz edilməsi problemi bütün dünya ölkələrini narahat edir. İqtisadiyyatlarını onilliklər ərzində əsasən kömür və digər mədən yanacaqları əsasında quran ölkələr çətin vəziyyətdədir. Məlumdur ki, bu ölkələrin ümumi enerji istehsalında Bərpa olunan enerji mənbələrinin payı yaşıl enerjidən faydalanan lider ölkələrdən xeyli aşağıdır. Bunlar Almaniya, Kanada və Skandinaviya ölkələridir.

Dövlətlər, bərpa olunan enerji mənbələrini dəstəkləyən prosesləri sürətləndirməli, müvafiq hüquqi tənzimləmələri tətbiq etməklə və enerji təchizatı üçün əlverişli şərait yaratmaqla yeni enerji mənbəsi növünə meyl etməlidir. Bərpa olunan enerji mənbələrinin sənayeyə inteqrasiyası, milli enerji sistemindəki yükü əhəmiyyətli dərəcədə azalda bilər ki, bu da, şübhəsiz ki, xərclərin və istixana qazı emissiyalarının azaldılması hesabına ətraf mühitə fayda verəcək.

Sənaye istehsalında yaşıl enerjinin payının zamanla artacağı aydındır. Bu artıq baş verir - şirkətlər getdikcə bərpa olunan mənbələrdən enerji istehsal edir. Bir çox sənaye şirkətləri enerji ehtiyaclarının bir hissəsini və ya hamısını ödəyən bərpa olunan enerji mənbələri üçün müqavilələr imzalayır. Təbii qalıq yanacaq ehtiyatlarının intensiv istifadəsini və onların hasilatı ilə bağlı artan xərcləri (o cümlədən ekoloji xərclər və zərərlər) nəzərə alaraq, yaşıl enerji bu gün qlobal iqtisadiyyatda getdikcə daha mühüm rol oynayır. Bütün bunlar o deməkdir ki, bərpa olunan enerjinin gələcəyi çox perspektivli görünür.

## Ekoloji maarifləndirmə mütləqdir



Enerji keçidi təkcə böyük istehsalatlarda deyil, evlərimizdə, təsərrüfatlarımızda və iş yerlərimizdə başlaya bilər və başlamalıdır. Bu gün bütün dünyanın gözü ekologiya təhlükəsindədir, daşqınlar, seillər, qasırğalar, zəlzələlər, istiləşmə, buzlaqların əriməsi bizim hamımız üçün fəlakətdir. Təbii sərvətlərin qorunması və zərərli tullantıların azaldılması ilə nəticələnən davamlı inkişaf beynəlxalq təşkilatların prioritet istiqamətidir.

Dünyanən ən böyük hədəfi karbon emissiyalarını azaltmaqla iqlim dəyişikliyi ilə mübarizəyə kömək etmək olmalıdır. Bərpa olmayan enerji mənbələri əvəzinə daha təmiz enerji mənbələrinə keçməklə bu məqsədə nail olunacaq. Tükənən ehtiyatlarla müqayisədə enerjiyə qənaətcil və ucuz olan bərpa olunan enerji mənbələrini təmin etməklə dünya həm davamlılığa töhfə verə bilər, həm də insanlarla yanaşı bütün canlıların təmiz bir dünyada yaşamasını təmin edə bilər.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
4 aprel
2024-cü il

# Allergik xəstəliklərdən özümüzü NECƏ QORUMALI?

*İZAH EDİLDİ*



Allergiya - orqanizmin antigen təbiətli maddələrə qarşı yüksəlmiş və təhrif olunmuş reaksiyasıdır. Orqanizmin yad və ya potensial təhlükəli hesab edib, ona qarşı antitellər (əks-cisimlər) hasil etdiyi hər hansı maddəyə antigen deyilir. Allergiya törədən antigenlər allergen adlanır. Allergik insanların bədənində daha çox İgE istehsal edilir. Bu zaman immun sistemi tam zərərsiz cisimlərə potensial təhlükəli kimi reaksiya verir. Yəni allergik insan bədəninə zərər verəcək heç bir şey olmadığı halda, birdən narahatlıq keçirir.

Yaz mövsümündə ən çox rast gəlinən problemlər sırasında allergik xəstəliklər xüsusi yer tutur. Statistik məlumatlara əsasən, hazırda dünyada hər on nəfərdən ikisi allergiyadan əziyyət çəkir. Yaz aylarında allergik xəstəliklər artır özümüzü necə qorumalı və nələrə riayət etməliyik? SİA mövzu ilə bağlı allerqolok Aytəkin Həsənzadənin fikirlərini öyrənib.

O bildirib ki, yaz aylarında allergiyanın artması tozlanma ilə əlaqədardır: "Tozlanma mövsümü başlayır. Əslində tozlanma bütün fəsillərdə var. Bitkilərin növündən asılı olaraq onların tozlanma vaxtı da dəyişir. Ancaq biz bunu daha çox yaz və payız aylarında hiss edirik. Ona görə də bu aylarda burun axması, tutma şəklində asqırmalar, burun tutulması müşahidə olunur. Xəstələr qeyd edirlər ki, boğulur, təngnəfəs olurlar, bəzən dəri səpkiləri də meydana çıxır. Bütün bunlardan uzaq qalmaqdan ötrü yaxşı olar ki, xəstələr mümkündürsə, günün az saatlarında açıq havada olsunlar. Saat 6-7 arası tozlanmanın və havada toz miqdarının yüksək olduğu vaxtda küçəyə çıxmasınlar. Əgər yenə də çıxmağa məcburdularsa, o zaman eynəklərdən istifadə etsinlər. Eyni zamanda maskalardan da istifadə edə bilərlər.

Yaxşı olar ki, evə gələn kimi dərhal üst geyimlərini dəyişsinlər, havalandırsınlar. Duş ala bilsələr, daha yaxşı olar, çünki onların dərilərinə, selikli qişalarına hopan allergenləri uzaqlaşdırmaq üçün əhəmiyyətlidir".

***Söylü Ağazadə***


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Plastik və estetik əməliyyatlar: ehtiyac, yoxsa zərurət?

*MÜNASİBƏT*



"Estetik müdaxilələrə tələbat günü-gündən çoxalır. Mən bunu xanımların internetdə və televiziyada olan simaları görməsi ilə əlaqələndirirəm. Bu simaların şəkilləri çox vaxt filtr altında çəkilmiş olur. Bloggerlər və ulduzlar öz həyat tərzlərindən danışarkən, təbii ki, gözəl həyat haqqında danışırlar. Bu insanlara daha çox cavan xanımlar baxırlar və düşünürlər ki, mən zahirən ona oxşasam, mənim həyatım da onun kimi uğurlu və parlaq ola bilər. Bir səbəb isə yaşla bağlıdır. Hazırda hər bir sahədə cavan və gözəl insanlara önəm verilir. Buna görə də xanımlar da daha gənc görünməyə çalışırlar". Bu sözləri SİA-ya açıqlamasında kosmetoloq Sevinc Abdullayeva deyib.

Həmçinin kosmetoloq son zamanlar ona və həmkarlarına müraciət edən kişi pasiyentlərin sayının heç də az olmadığını qeyd edib: "Mənə və həmkarlarıma kişilər çox müraciət etməyə başlayıblar. Onlara daha çox "botulotoksin", yəni mimik qırışların aradan götürülməsi proseduru edirik. Mən kişilərə çox vaxt "radiesse" preparatını tətbiq edirəm. Çünki bu preparat üzün cizgilərini itirmir prosedurdan sonra heç bir iz qalmır və bəylərimiz səhəri gün rahatlıqla işə gedə bilirlər". "Lazım olmayan prosedurları isə etmirəm. Ona görə də mənim xəstələrim daha çox 30-35 yaşdan yuxarı insanlardır. Onlarda artıq qocalma simptomları özünü göstərməyə başlayır və biz "Anti-Age" prosedurlar edirik. Cavanlar isə öz simalarını dəyişmək istəyirlər. Mən çox vaxt onları geri göndərirəm",- deyə o əlavə edib.

***Ləman***

# Kitab oxuyan insanla, oxumayan insan arasındakı fərqlər açıqlandı...



"Əvvəllər hər kəs özünü kitabla inkişaf etdirirdi. Amma indi sosial şəbəkələr həddən artıq inkişaf etdiyinə görə, insanlar kitaba çox müraciət etmirlər: "Ona görə də müşahidə edirik ki, insanlar mənən zəngin olmağın yollarını axtarırlar. Napoleon Hillin belə bir əsəri var, "Düşün və zəngin ol", o əsərdə yazıçı özü deyir ki, bu kitabı ən azı on beş dəfə oxumalısınız ki, mənən zəngin olmağın yolunu tapasınız. Amma bu gün insanlar daha başqa yollarla mənəviyyatlarını zənginləşdirmək istəsələr də, buna nail ola bilmirlər". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Gülnar Orucova deyib. Psixoloq vurğulayır ki, kitab oxuyan insanla, oxumayan insan arasında böyük bir fərq olur: "Onun zəkasında, düşüncəsində, nitqində, davranışında bu fərqlilik özünü büruzə verir. Diqqət etdikdə görürsən ki, kitab oxuyan insanın nitq qabiliyyəti daha yüksəkdir, nəinki oxumayanın. Hazırda insanları müşahidə etdikdə görürük ki, fikrini izah etməkdə çətinlik çəkən insanlar daha çoxdur. Səbəb isə odur ki, onlar bədii ədəbiyyatdan, digər kitablardan az istifadə edirlər, buna görə də daha çox özlərini sosial şəbəkələrə həsr etdikləri üçün nitqlərində qüsur yaranıb".

"Bu gün bir insan istəyirsə ki, övladının nitq bacarığı, düşüncəsi, qabiliyyəti artsın, digər uşaqlarla ünsiyyətə girsin, bunun üçün onda kitab oxuma bacarığı aşılamalıdır. Bu isə sırf uşaqlıq dövründən başlamalıdır. 6 yaşda şüuraltı tam formalaşdığı üçün bu yaşa qədər kitab oxuma vərdişini aşılamış olsaq, daha sonra onlar özü onu davam etdirəcək və mütaliə edəcək. Amma elə olur ki, çox zaman biz, uşaqda 6 yaşa qədər bunu formalaşdırmırıq, o böyüdükdən sonra isə deyirik ki, kitab oxumalısan və. s. Bu zaman uşaqda kitaba maraq yaranmır: "Çünki o, həmin marağı digər sahələrdə tapıb, sosial şəbəkələrdə, fərqli hobbilərdə öz maraq dairələrini birləşdirib",- deyə psixoloq izah edib.

***L.Sərraf***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 3200